# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin İKT-nin inkişafına yönəlmiş əhəmiyyətli layihələrin dəstəklənməsi məqsədi ilə qrantların verilməsi üzrə 2013-cü il üçün 2-ci məqsədli birgə İKT müsabiqəsinin (EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)) qalibi olmuş və yerinə yetirilmiş layihə üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Mərkəzi VideoCV Platforması ilə insan resurslarının idarə edilməsi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əlili Orxan Razim oğlu**
Qrantın məbləği: **50 000 manat**
Layihənin nömrəsi: **EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)-29/24/1-M-04**
Müqavilənin imzalanma tarixi: **14 aprel 2014-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2014-cü il – 01 may 2015-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Dünyada və ölkəmizdə texnologiyanın sürətli inkişafı sözsüz ki, həyatımızın hər bir sahəsinə təsir edir. Dəyişikliklərin əsas məqsədləri müəyyən işi yerinə yetirmək üçün daha effektiv üsulları tətbiq etmək, sərf olunan vaxtı, maliyyəni azaltmaq, subyeklər arasında məsafə faktorunu aradan qaldırmaqdır. Məhz bu məqsədləri kökündə cəmləyən “Mərkəzi VideoCV platforması ilə insan resursların idarə edilməsi” layihəsinə 1 il öncə start verildi.<br>İnsan resursları sahəsində edilən hər bir dəyişiklik əslində insan resursların keyfiyyətinə təsir edir. İşə qəbul zamanı seçim və digər proseslər nə qədər texnoloji cəhətdən yeni və effektiv olsa, o qədər də namizədlər çalışacaq ki, daha çox bilikli və bacarıqlı olsunlar, işə düzəlmək üçün müxtəlif yeniliklərdən düzgün istifadə etsinlər. Həmçinin insan resursları mütəxəssisləri namizədlər arasında düzgün seçim etmək və ən uyğun namizədi tapmaq üçün nə qədər çox və |

effektiv üsul və mexanizm işlətsələr o qədər də şirkətləri yaxşı işləyəcək və ölkəmizə müəyyən xeyir verəcək.

Layihənin məqsədi ölkə daxilində mövcud olan əmək münasibətlərinin təkmilləşdirilməsi və informasiya-kommunikasiya texnologiyaları vasitəsilə davamlı inkişafın təmini məqsədilə insan resursların idarə edilməsində müasir texnologiyaların (video, video görüşlər) rolu və bu texnologiyanın yerli şirkətlərlə iş axtaran əhalinin qarşılıqlı münasibətlərinə inteqrasiya edilməsinin tədqiqidir. Bu məqsədə nail olmaq üçün layihının icrası zamanı layihə rəhbəri və icraçılar tərəfindən çox böyük iş görülüb.

İlk addım olaraq kütləvi sorğu təşkil olundu. Gələcək saytın və videocv, video-müsahibənin platforma kimi inteqrasiya edilməsinə yönəlmiş anket şəklində kütləvi sorğu keçirildi. Sorğuda 3 müxtəlif şəhərin respondentləri iştirak etdi. Sorğu nəticəsində saytın tərtibatı zamanı diqqət yetiriləcək prioritetlər müəyyən edildi. Sorğu nəticəsində hal-hazırda ABŞ-da aparıcı olan işədüzəltmə saytları və onların istifadəçilər üçün verdiyi müsbət mənfi cəhətlər analiz edildi. Analiz nəticəsində videocv və video müsahibələrin saytlar üçün qaçılmaz bir texniki modul olması ortaya çıxdı. Sosial şəbəkələrin aktuallığı qabarıq şəkildə görüldü. Sorğu nəticəsində videocv mərkəzi platformasını sosial şəbəkələrə inteqrasiya edilmiş şəkildə etmək qərara alındı.

Saytın texniki planının hazırlanması layihə icraçıların atdığı ikinci addım oldu. Platformanı yaradacaq texniki heyət ilə texniki plan tərtib edildi. Plana əsasən:

- istifadəçi paneli (bütün texniki müddəları ilə) təyin edildi;

- şirkət və təşkilat paneli (bütün texniki müddəaları ilə) təyin edildi;

- istifadəçi tərəfin, şirkət tərəfin qeydiyyat, aktiv əməliyyatlar və dövriyyə-statistik göstəricilərini özündə cəmləşdirən admin panel müəyyən edildi. Lahiyə üzrə tərtib ediləcək saytın dizayn görünüş (Uİ/UX) təyin edildi. Görüləcək texniki-tərtibat işləri üçün 23 iş günü müddətinə vaxt qoyuldu.

Texnlkl-tərtlbat lşlərl nəzərdə tutulan vaxtda bltdl.

Hazır saytın texniki planı hazırlandı.

Plana əsasən:

- İstifadəçi paneli dizayn edildi və back-end formada hazırlandı. Bu paneldə istifadəçi həm şirkət həm də fərd olaraq qeydiyyatdan keçə bilir.

- Şirkət və təşkilat paneli (bütün texniki müddəaları ilə) təyin edildi.

- İstifadəçi tərəfində olan xanalarda CV-ni yaratmaq VideoCV yerləşdirmək, göndərilən müraciətlər nəticəsini izləmək üçün əməliyyat pəncərələri mövcuddur.

- Şirkət tərəfində olan xanalarda Elan yaratma, Elana müraciətlərə nəzarət bölməsi, Müraciət edənlərin siyahısı, daxili mesajlaşma və video müsahibə imkanları yaradıldı. Video müsahibə və videocv yükləməni təşkil edən sistemlər ödənişli olduğundan sadəcə “pulsuz” versiyaları test edildi.

- Saytın Admin Paneli yaradıldı. Həm şirkətlərə həm də istifadəçilərə xüsusi icazə verən düymələr, demoqrafik məlumatları toplayan bölmələr və gündəlik əməliyyatların həcmini hesablayan bölmələr yaradıldı (admin panel istifadəçilərin davranış xəritəsini əks etdirir).

Uİ görünüş hazır olandan sonra onun istifadəçi üçün nə qədər rahat olması təyin edildi. Belə ki, saytdan qeydiyyatdan keçmə və ya şəxsi profilə daxil olma və profil məlumatlarını doldurma zamanı (sosyal şəbəkəylə birbaşa qoşulma baş verməyibsə) yaranan interval müddətinin visual indeks dəyəri təqribi 4 dəqiqə 30 saniyədir. Bu müddətin daha da azaldılma yolları araşdırıldı.

1-ci rübün sonuna artıq planlaşdırılan platforma yaradılmışdır və insanlar tərəfindən istifadə olunurdu. Layihənin sonunadək platforma üzərində texniki işlər aparılırdı. Bu işlərə yeni funksiyaların yaradılması, saytın tez yüklənməsi, istifadəçilər üçün rahatlaşdırılması və uyğunlaşdırılması daxildir.

Ölkə daxilində sırf universitet tələbələriylə sorğunun prioritetləri və hədəfləri, sorğunun keçirilmə vaxtı müəyyən edildi. İlkin olaraq Bakı Dövlət Universiteti, İqtisad Universiteti, Dövlət İdarəçilik Akademiyası və Qafqaz Universiteti tələbələri ilə mərkəzi videocv platforması barədə və bu platformanın sırf elektron əmək müqaviləsi – e-hökümət istiqamətində aparılan reformalardakı yeri barədə araşdırma xarakterli sorğular aparılacaq. Sorğular nəticəsində ölkədə yaradılacaq ilk elektron əmək yarmarkasının əmək bazarına təsiri analiz ediləcək.

Universitetlərlə görüşlər keçirildi. Belə ki, Dövlət İqtisad Universiteti, Qafqaz Universiteti karyera planlama mərkəzləri ilə təmas quruldu. Həmin universitetlərin rəsmiləri ilə "onlayn yarmarka" edə bilmə potensialı müzakirə edildi. Tələbələrin innovativ yollarla iş axtarma şansı barədə seminar və konferanslar keçirilməsi barədə təkliflər edildi. Universitetlər nəznində xüsusi karyera klubunun yaradılması təşəbbüsü də müzakirə edilən mövzular sırasında idi. Belə ki, bu cür klubun bizim keçirəcəyimiz sorğular üçün mühüm mərkəz halına çevriləcəyi bildirildi. Könüllü tələbələrlə birgə həftə içi və sonu müəyyən saatlarda videocv barədə info-seansları keçirə biləcəyimiz bir məkanın olmasının nə qədər əhəmiyyət kəsb etdiyi vurğulandı.

ABŞ-a səfər edilərək, sosial şəbəkə və xüsusi təkliflər sahəsində çalışan şirkət və şirkət nümayəndələri ilə görüşlər keçirilərək, mövzu ətrafında müzakirələr aparılmış və onların təcrübələri ilə yaxından tanış olunmuşdur.

Layihənin öncəki mərhələsində saytın istifadəçi üçün nə dərəcədə rahat olması təyin edilmişdir. Belə ki, saytdan qeydiyyatdan keçmə və ya şəxsi profilə daxil olma və profil məlumatlarını doldurma zamanı (sosial şəbəkə ilə birbaşa qoşulma baş verməyibsə) yaranan interval müddətinin visual indeks dəyəri təqribi 4 dəqiqə 30 saniyə idi. Sayt üzərində aparılan araşdırmalar, dizayn və struktur dəyişiklikləri nəticəsində qeydiyyatdan keçmə və ya şəxsi profilə daxil olma və profil məlumatlarını doldurma zamanı (sosial şəbəkəylə birbaşa qoşulma baş verməyibsə) yaranan interval müddətinin visual indeks dəyəri 4 dəqiqəyə qədər azalmışdır.

2014-cü il ərzində Mərkəzi VideoCV Platforması ilə insan resurslarının axtarışı, seçimi və idarə edilməsi barədə kiçik, orta və iri şirkətlərin insan resursları mütəxəssislərini məlumatlandırmaq, platformanı istifadə etməkdə köməklik etmək, mütəxəssislərin fikirlərini və təkliflərini öyrənmək məqsədi ilə bir çox görüşlər keçirilmişdir.

İş axtaranların inamla tez bir zamanda hazırlıq səviyyələrinə uyğun işin tapılması üçün 2 təlim təşkil olunmuşdur. Təlimlər zamanı VideoCV-nin önəmi barədə də məlumat verilmişdir. İştirakçılara VideoCV çəkilməsi ilə bağlı təlimat verilmişdir.

Saytın imkanlarını geniş kütləyə çatdırmaq üçün Asan Xidmət və Asan Könüllülər Gənclər Təşkilatı ilə danışıqlar aparılmışdır. Platformanın imkanlarını Asan Xidmət tərəfindən istifadə olunması və insanlara Asan CV, Asan VideoCV xidmətinin verilməsi üçün danışıqlara başlanılmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə keçiriləcək "VideoCV-ni çək – İşsiz qalma!" layihəsinin planı hazırlanmışdır. Layihəni həyata keçirmək üçün danışıqlar aparılmışdır.

Elektron hökümət və elektron layihələr barədə əhalini məlumatlandırmaq üçün yaradılmış E-gov TV tərəfindən layihə rəhbəri Orxan Əlilinin təqdimatında 2 videoçarx hazırlanmışdır və geniş kütləyə nümayiş olunmuşdur.

Mərkəzi VideoCV Platforması MilliNet – Milli İnternet Mükafatının Servis nominasiyasında 4-cü

yerə layiq görülmüşdür.

Müxtəlif peşələr üzrə kurslar təşkil edən Etika Akademiyası ilə əməkdaşlıq imzalanmışdır. Əməkdaşlıq çərçivəsində layihə icraçıları Akademiyanın məzunlarına VideoCV çəkməkdə yaxından köməklik göstərmişdilər.

Layihə rəhbəri Asan Könüllülər Gənclər Təşkilatı və ADA Angels tərəfindən ADA Universitetində təşkil olunmuş "1 Gənc 1 Uğur 1 Hekayə" tədbirində iştirak etmişdir və 500-dən çox iştirakçıya layihə barədə qısa məlumat vermişdir. Həmçinin layihə rəhbəri çıxış edən Seymur Rəsulovla tədbirdən sonra söhbət etmişdir və gələcəkdə birgə əməkdaşlıq etməyə razılaşmışdır.

Layihənin icrası zamanı ölkəmizdə və xaricdə oxuyan Azərbaycan tələbələrinin VideoCV barədə fikirləri və VideoCV-lərin çəkilməsi üçün razılıq alınmışdır. Alınmış nəticələr əsasında məlum oldu ki, xaricdə təhsil alan gənclər videocv çəkməyə daha meyillidirlər və onlar üçün video çəkməyin qarşısını alan heç bir baryer yoxdur.

Layihə rəhbəri icraçılarla birgə BakuTel 2014 texnologiya sərgisində Yüksək Texnologiyalar Parkının stendində yer alaraq ziyarətçilərə layihə və sayt barədə məlumat vermişdir. Ziyarətçilərdən bir çoxu saytla tanış olduğunu və istifadə etdiyini qeyd etmişdir.

Həmçinin sərgi zamanı cənab Nazir Əli Abbasova layihə barədə məlumat verilmişdir.

Layihə rəhbəri və proqramçı 2015-ci ilin yanvar ayın sonu, fevral ayın əvvəlində "Yüksək Texnologiyalar Parkı" (YTP), "Bakcell" şirkəti və "Microsoft" şirkətinin Azərbaycandakı nümayəndəliyi tərəfindən "YTP"-da keçirilən BizSpark proqramının təqdimatında iştirak etmişdilər.

Mərkəzi VideoCV Platformasını texniki cəhətdən inkişaf etdirmək, proqramçıya vacib və yeni alətlər, proqram təminatları təqdim etmək, həmçinin platformanı daha da mükəmməl etmək üçün layihə rəhbəri layihəsi ilə birgə Microsoft BizStark proqramına müraciət etdi. Qısa zaman ərzində proqrama müraciətlə bağlı təstiq aldı və dünya üzərində texnologiya sahəsində çalışan, yenilik gətirən, həmçinin texnologiyanın inkişaf yollarını araşdıran layihələrdən ibarət qrupa daxil oldu. Qeyd etmək lazımdır ki, Microsoft-un BizSpark proqramına yalnız ən önəmli və perspektivli layihələri dəvət edib, təstiqləyirdilər. Bu da onu göstərir ki, "Mərkəzi VideoCV Platforması ilə insan resurslarının idarə edilməsi" layihəsi və bu layihə çərçivəsində yaradılan platforma insan resurslarının və insan resursları mütəxəssislərin işini asanlaşdırır, daha effektiv edir və vaxtlarına qənaət edir.

Microsoft BizSpark Microsoft şirkətinin 2009-cı ildə başladığı beynalxalq proqramdır. Proqram çərçivəsində texnologiya sahəsində çalışan yeni şirkətlərə və heyətlərə texnoloji alətlər (software) və lisenziyalı proqram təminatı verilir.

BizSpark proqramının əsas məqsədlərinə daxildir:

- Xərclərin azaldılması
- Yeni layihələrə ekspert dəstəyi vermək imkanı
- Proqramlaşdırma, dizayn, proqram məhsulların sınağı, vebsaytın internetdə yerləşdirilməsi üçün texnologiyanın seçimində kömək
- MSDN-dən istifadə etmək imkanı
- İstehlakçıların layihəyə cəlb olunması

Həmçinin proqram çərçivəsində layihə içraçılarına Windows Azure-dan istifadə etmək imkanı, layihəyə beynəlxalq partnerlar, investorlar, müştərilər və istifadəçilər cəlb etmək imkanı, Microsoft Fondunun və Windows Azure-nın qrant layihələrinə müraciət etmək imkanı, Microsoft BizSpark-ın partnerləri tərəfindən verilən üstünlüklərdən istifadə etmək imkanı.

Layihə rəhbəri Əlili Orxan Razim oğlu tərəfindən 21 fevral tarixində Yüksək Texnologiyalar Parkında təşkil olunan "Özünə inan" təlimi və 13-14 mart tarixlərində təşkil olunan "Möhtəşəm təlimçi ol" təlimi geniş kütləyə bilik və bacarıqlarını, həmçinin inamı artırmaq məqsədi ilə keçirilmişdir. Hər iki təlimin əvvəli və sonunda "Mərkəzi VideoCV platforması" barədə məlumat verilmişdir və istifadə qaydaları izah olunmuşdur. Platforma ilə artıq tanış olanlar tərəfindən fikir və təklifləri alınmışdır.

Muasir zamanda hər hansı bir məhsulu və ya xidməti istehlakının diqqət mərkəzinə yerləşdirmək və istehlakı tərəfindən istifadə olunmasına nail olmaq çeşid bolluğu və digər səbəblərdən çox çətindir. "Mərkəzi VideoCV Platforması ilə insan resurslarının idarə edilməsi" layihəsinin düzgün şəkildə yerinə yetirilməsi və obyektiv nəticələr əldə olunması üçün hazırlanan platformanının geniş kütlə tərəfindən istifadə olunması gərəkdi. Məhz buna görə gələcəkdə platformanın insanların həyatını asanlaşdırması və həyatlarının ayrılmaz hissəsinə çevrilməsi üçün düşünülmüş təbliğat işləri aparılmalıdır. Təbliğat işini düzgün aparmaq, marketinq və PR strategiya hazırlamaq üçün layihə rəhbəri ən iri və uğurlu beynəlxalq şirkətlərin təcrübəsindən yararlanmaq qərarına gəldi və beynəlxalq şirkət "P. World" tərəfindən 16-17 aprel tarixində təşkil olunan, "Azərfon" və "Pasha Bank" kimi iri şirkətlərin maliyyə dəstəyilə reallaşdırılan "Marketing Kingdom Baku 3" tədbirində fəal iştirak etdi (qeyd etmək lazımdır ki, tədbirdə iştirak haqqı 599AZN təşkil edirdi). Tədbirin mahiyyətini izah etmək üçün çıxış edənlərin siyahısını (şirkət, təqdimatçı, vəzifə) göstərmək lazımdır. Çıxış edənlərin siyahısı aşağıdakı kimi idi:

- Google – Alfonso De Gaetano – Branding sector lead at North Africa and Middle East
- Unilever – Asad Ur Rehman – Media Director North Africa and Middle East
- Adapt or Die – Oliver Kempkens – CEO
- BBC – Muhammad Karim – Marketing manager Middle East, North Africa (MENA)
- Oracle – Karim Mokhnachi – Vice prezident marketing ECEMEA
- Danone – Hasan Kartal – Sales director Nutricia Export
- Official Spokesperson, Prince William and Kate's Wedding – Colleen Harris – Former press secretary to princes Charles, William and Harry
- Fox Broadcasting Company (Turkey) – Baris Zavaroglu – VP marketing, digital, strategy, corporate communication, promo advertising
- Rolls-Royce Motor Cars – Jamal Al Mawed – Head of corporate communications in Middle East, Africa and Latin America
- VISA – Noha Wagih Bashir – Director of social and digital marketing CEMEA
- Procter & Gamble – Alex Malouf – Corporate Communications manager, Arabian Peninsula
- Twitter – Aliza Knox – MD, online sales, APAC
- Heineken – Martina Misheska – Senior brand manager
- Landor – Peter Knapp – Global creative officer
- Y&R Moscow – Irina Volkhonskaya – Managing director
- Nar (Azerfon) – Max Fyodorov – CMO (Chief Marketing Officer)

Tədbir zamanı və fasilələrdə layihə rəhbəri çıxış edənlərin əksərəti ilə, həmçini tədbirdə iştirak

edən yerli şirkətlərin təmsilçiləri ilə söhbət etmiş, layihə barədə məlumat vermiş, mütəxəssislərin fikirlərini öyrənmiş, faydalı məsləhətlər almış və gələcəkdə əlaqə yaratmaq üçün əlaqə vasitələrini götürmüşdür. Gələcəkdə görüşüb konstruktiv dialoq aparmaq və daha sıx əməkdaşlıq etmək üçün Azərfon şirkətinin PR və korporativ əlaqələr rəhbəri Nigar Arpadarai, XalqBank şirkətinin baş mütəxəssisi Tamerlan Dəmirbəyli, RCOM texnologiya şirkətinin satış və marketinq direktoru Tural Mehtiyev, Digital Marketing İnstitute şirkətinin həmtəsisçisi Tural Nəbizadə, Digital Services Company şirkətinin biznesin inkişafı üzrə meneceri Sabina Yusufova, Procter & Gamble Azerbaijan şirkətinin insan resursları mütəxəssisi Aygun Rustamova, P. World şirkətinin təsisçisi və rəhbəri Kosta Petrov, Azersun Holdinqin işə qəbul şöbəsinin müdiri Elçin Əzimli və işə qəbul bölməsinin rəisi Nurulla Nəsibovla görüş razılığı və vizit kartlar alınmışdır.

Layihənin məqsədinə uyğun olaraq ölkə daxilində mövcud olan əmək münasibətlərinin təkmilləşdirilməsi və informasiya-kommunikasiya texnologiyaları vasitəsilə davamlı inkişafın təmini məqsədilə insan resursların idarə edilməsində müasir texnologiyaların (video, video görüşlər) rolu və bu texnologiyanın yerli şirkətlərlə iş axtaran əhalinin qarşılıqlı münasibətlərinə inteqrasiya edilməsinin tədqiqi üçün həm iş axtaran əhali ilə çoxlu sayda görüşlər və təqdimatlar keçirilmişdir, iş axtaranların fikirləri alınmışdır, çətinlik çəkdikləri və aydın olmayan məqamlar aradan qaldırılmışdır və iş tapmaq üçün vacib məsləhətlər verilmişdir. Həmçinin bir sıra şirkətlərin və qurumların rəhbərləri, insan resursları mütəxəssisləri ilə tək bə tək görüşlər keçirilmiş, layihə haqqında ətraflı məlumat verilmiş, videocv, video görüş və ümumi platforma haqqında fikirləri öyrənilmişdir. Aşağıda layihə rəhbərin keçirdiyi görüşlərin haqqında ətraflı məlumat göstərilib.

Mars Tech şirkətinin təsisçisi və icraçı direktoru Orxan Əliyevlə işguzar görüş hər iki tərəf üçün çox yaxşı və faydalı oldu. Orxan müəllim bildirdi ki, VideoCV platforması ölkəmiz üçün çox faydalı olacaq, həmçinin VideoCV-nin gələcəyinə inandığını söylədi və layihə rəhbəri ilə sıx əməkdaşlıq göstərməyə razılıq verdi. Əməkdaşlıq çərçivəsində Mars Tech şirkəti tərəfindən platformaya bir neçə vakansiya yerləşdirildi, mövcud videocv-lərə baxıldı və uyğun olan namizədlərlə görüş təyin olundu.

Bir neçə şirkətin və veb-platformanın təsisçisi Rəşad Mirzəyevlə keçirilən görüş nəticəsində Rəşad bəy öz təcrübəsi ilə paylaşdı, platfromanın inkişaf istiqamətində faydalı məsləhətlər təklif etdi və "Mərkəzi VideoCV platformasının" daha təhlukəsiz və stabil işləməsi üçün öz serverlərindən birində yerləşdirilməsinə və servis xidmət göstərilməsinə razılıq verdi.

Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəznində yaradılan Yüksək Texnologiyalar Parkının idarə heyəti, həmçinin şöbə rəisləri ilə görüşlər keçirilmişdir. YT Park tərəfindən layihənin yerinə yetirilməsi üçün hər tərəfli dəstək verilmişdir. Əməkdaşlıq çərçivəsində Yüksək Texnologiyalar Parkı tərəfindən tədbirlərin keçirilməsi üçün zal təqdim olunmuşdur, həmçinin Yüksək Texnologiyalar Parkının İE Bussines school ilə əməkdaşlığı çərçivəsində "Mərkəzi VideoCV Platforması ilə insan resurslarının idarə edilməsi" layihəsinin Belarusiyanın paytaxtı Minskda keçirilən beynəlxalq tədbirin səhnəsində təqdim olunmasına nail olunmuşdur.

Növbəti görüşlərdən biri Azersun Holdinqin işə qəbul bölməsinin rəisi Nurulla Nəsibov ilə keçirilmişdir. Görüş zamanı Nurulla bəy bildirmişdir ki, yaradılmış VideoCV platformasını çox bəyənir. Bölmə rəisi həmçinin məlumat verdi ki, Azersun Holdinqin işə qəbul platforması (veb-saytı) var. Nurulla bəy söyləmişdir ki, layihə çərçivəsində yaradılmış mərkəzi VideoCV platformasından Azersun Holdinqin işə qəbul əməkdaşları o zaman istifadə edəcəklər ki, həmin platformaya gündəlik 10000-dən çox insan istifadə etsin. Nurulla bəy layihə rəhbəri tərəfindən təşkil olunacaq təlimlər və maarifləndirici tədbirlərdə iştirak və çıxış etmək, iş axtaranlara kömək olmaq istədiyini vurğuladı.

Azerfon şirkətinin insan resursları departamentinin supervayzeri Samir Əmirov ilə görüş çox

məhsuldar keçdi. İlk öncə layihə rəhbəri layihə haqqında məlumat verdi. Samir bəy öz növbsində Azerfon şirkətində işə qəbul prosesinin necə baş verdiyini izah etdi və platforma barədə fikirlərini bildirərək təkliflərini söylədi. Samir bəy həmçinin söylədi ki, layihənin gedişi haqqında mutamadi olaraq məlumat almaq istəyir və layihə çərçivəsində keçirilən böyük tədbirdə iştirak etməkdən məmnun olardı.

Rabitəbankın insan resursları departamentin baş mütəxəssisi Fidan Quliyeva ilə görüş zamanı platformada iş elanlarının yerləşdirilməsi və digər sahələrdə əməkdaşlıq razılığı əldə olunmuşdur. Fidan xanım, platforma barədə fikirlərini və təkliflərini bildirmişdir.

Buta Sığorta şirkətinin insan resursları şöbəsinin baş mütəxəssisi İnci Əhmədzadə ilə görüş çox effektiv keçdi. Belə ki, görüş zamanı platformadan hər tərəfli istifadə razılığı və təlim-tədbirlərdə aktiv iştirak razılığı əldə olunmuşdur.

Keçirilən görüşlərə həmçinin aiddir Sumqait Texnologiyalar Parkının biznesin inkişafı şöbəsinin biznesin inkişafı üzrə mütəxəssisi Ülkər Kərimova, April UV şirkətinin yaradıcısı və direktoru Ürfət Abbaslı, Caspian telecom şirkətinin direktor muavini Mahizər Tağıyeva, SİP şirkətinin insan resursları meneceri Aynur Buniyatova, KoçSistem Azerbaijan şirkətinin ölkə üzrə meneceri Mucit Emel, Avirtel şirkətinin insan resursları meneceri Elnara Muradova, Megavision İnternational şirkətinin icraçı direktoru Rufat Mahmudov, Komtel Technologies şirkətinin layihə rəhbəri Cemal Karaca, Smart şirkətinin baş direktoru Sübhan Qaragözov və Microsoft Azərbaycan şirkətinin strateji həllər üzrə mütəxəssisi Qaçay Mirzəyevlə görüşlər keçirilmişdir. Görüşlər zamanı platforma barədə fikirlər və təkliflər alınmışdır, iş elanlarının yerləşdirilməsi danışılmışdır. Qeyd etmək lazımdır ki, yuxarıda sadalanan görüşlər layihənin icrası zamanı keçirilən görüşlərin yalnız bir hissəsidir. Görüşlərin ümümi nəticəsi və əldə olunan fikir və təkliflər yekun hesabatın “elmi nəticələr” bölməsində qeyd olunacaqdır.

Aprel ayın əvvəlində layihə rəhbəri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində görüş keçirtdi. Görüşün bir neçə məqsədi var idi:

- Asan Xidmət və Asan Könüllülər Gənclər Təşkilatı ilə əməkdaşlığın təməlini qoymaq

- platformanın imkanlarını Asan Xidmət tərəfindən istifadə olunması və insanlara Asan CV, Asan VideoCV xidmətinin verilməsi barədə müzakirələr aparmaq

- təlimlər və tədbirlər sahəsində Dövlət Agentliyi ilə, həmçinin Asan Könüllülər Gənclər Təşkilatı ilə sıx əməkdaşlıq etmək

Görüş Dövlət Agentliyinin mərkəzi ofisində insan resursları və təlim şöbəsinin baş məsləhətçisi, həmçinin Asan Könüllülər Gənclər Təşkilatının yaradıçılarından və idarə heyəti üzvlərindən biri olan Sahil Məmmədli ilə keçirilmişdir. Bu görüş də öz növbəsində çox məhsuldar keçdi. Hər iki qurum ilə əməkdaşlığın başlanğıcı qoyuldu. İlk öncə layihə rəhbəri layihə haqqında ətraflı məlumat verdi. Daha sonra Sahil bəy Dövlət Agentliyində işçilərin və könüllülərin qəbulu barədə geniş məlumat verdi, agentliyinin karyera platformasını göstərdi və iş prinsiplərini izah etdi.

Görüş zamanı qərara alındı ki, Asan xidmətin könüllülərinə CV, VideoCV, müsahibə barədə layihə icraçıları tərəfindən seminar keçiriləcək və onların VideoCV-ləri hazırlanacaqdır. Təlim sahəsində daha geniş əməkdaşlıq etmək üçün Sahil bəy agentlikdə təlimlər üzrə ekspert Kamil Piriyevin əlaqə vasitələrini verdi və şəxsən özü Kamil bəydən görüş razılığı aldı.

Sahil bəy Asan Xidmətin könüllüləri arasında Mərkəzi VideoCV platforması barədə məlumatın yayılmasını öz üzərinə götürdü.

Görüş zamanı aydın oldu ki, platformanın imkanlarını Asan Xidmət tərəfindən istifadə olunması və insanlara Asan CV, Asan VideoCV xidmətinin verilməsi üçün geniş plan hazırlanmalı, idarə

heyəti ilə görüşlər keçirilməli, qərar verilməli, xidmət göstərəcək əməkdaşlar cəlb olunmalı və onlara təlim keçirilməlidir. Bu proseslər çox vaxt tələb etdiyindən layihənin sonuna kimi onları başa çatdırmaq mümkün olmayacaq və bu səbəbdən proses layihə bitəndən sonra da davam edəcəkdir.

Sahil bəy ilə görüşdən 1 həftə sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təlimlər üzrə eksperti Kamil Piriyevnən görüş keçirildi və agentliyinin heyətinə bir neçə istiqamətdə təlim və seminarların keçirilməsi müzakirə olundu.

Mərkəzi VideoCV Platforması haqqında beynəlxalq tədbirin səhnəsindən məlumat verməK, texnologiya sahəsinin qurularından məsləhət almaq, layihənin inkişafı, Azərbaycanda və MDB ölkələrində onun tətbiqi ilə bağlı müzakirələr aparmaq, insan resurslarının idarə olunmasında mövcud effektivliyini araşdırmaq və eyni zamanda MDB ölkələrindən biri olan Belarusda bu sahə üzrə hansı innovasiyaların tətbiq olunmasını araşdırmaq, həmçinin layihə haqqında məqalənin xarici mənbələrdə (jurnallarda) dərc edilməsinə nail olmaq, layihə ətrafında elmi mübadilələr aparmaq üçün 21-28 aprel tarixlərində layihə rəhbəri Əlili Orxan Razim oğlu Belarusun Minsk şəhərinə ezam olundu. Minsk şəhərinə səfər zamanı yuxarıda qeyd olunan bütün istiqamətlər üzrə iş aparıldı və uğurlu nəticələr əldə olundu. Ezamiyyət haqqında ətraflı məlumat "Mərkəzi VideoCV Platforması ilə insan resurslarının idarə edilməsi" lahiyəsi çərçivəsində Belarusun Minsk şəhərinə ezamiyyət üzrə hesabatda qeyd olunub.

Layihə rəhbəri ezamiyyətdən dönəndən dərhal sonra "Fabrika Coworking mərkəzi" ilə əməkdaşlıq çərçivəsində mərkəzi videocv platforması haqqında kütləyə məlumat vermək məqsədini daşıyan təqdimatda iştirak etdi. Tədbirdə layihə icraçısı Coşqun Kərimov çıxış etdi, iştirakçılara platforma haqqında ətraflı məlumat verdi və qeyd etdi ki, layihə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə dəstəyi ilə həyata keçirilir. Təqdimatda 50-dən çox insan iştirak etdi. Tədbirin sonunda layihə rəhbəri Orxan Əlili və layihə icraçısı Coşqun Kərimov iştirakçıların suallarını cavabladılar.

"Fabrika Coworking mərkəzində" Aygün Novruzova tərəfindən keçirilən "BrendSən" təlimində və Leyla Surxayzadə tərəfindən keçirilən "Məktubun sənə iş axtarsın" təlimində "Mərkəzi VideoCV Platforması" və onun iş axtaranlar üçün əhəmiyyəti haqqında məlumat verilmişdir.

Layihənin geniş kütləyə çatdırılması və insanlara işə düzəlmə istiqamətində konkret bilik və bacarıqların ötürülməsi üçün 8, 9 və 10 may tarixlərində "İşə başla!" təlimi təşkil olunmuşdur (təlimin daha tez keçirilməsi planlaşdırılırdı, sadəcə təlimçinin tezliklə övladı dünyaya gəlmə ehtimalı böyük olduğundan və uşağın gec, 3 may tarixində, dünyaya gəldiyindən təlim mayın əvvəli təşkil olunmuşdur). Təlimçi olaraq Dubayda işləyən və yaşayan Seymur Rəsulov dəvət olunmuşdur. Seymur bəy hal-hazırda dunyanın ikinci ən böyük elmi nəşriyyat evi olan Springer-də çalışır.

Təlim zamanı iştirakşılara iş tapmaq üçün dəyərli məsləhətlər verilmiş, rezumeləri (CV-ləri) və videocvləri hazırlanmış, hər iştirakçı ilə ayrılıqda sınaq müsahibə keçirilmiş, platforma və onun faydası haqqında məlumat paylaşılmış, sertifikatlar verilmiş və xatirə şəkilləri çəkilmişdir.

3 gün davam edən təlimlərdən sonra layihə rəhbəri Seymur bəylə gələcək birgə işlər haqqında söz açdı. Söhbət zamanı Mərkəzi VideoCV platformasını istifadə edənlərə Springerin və digər nəşriyyat evlərinin faydalı kitablarından bir qisminin göndərilməsi qərara alındı. Həmçinin gələcəkdə ölkədə bir neçə təlim və layihənin keçirilməsi və bu təlimlərin Seymur bəy və digər təcrübəli xarici mütəxəssislər tərəfindən keçirilməsi planlaşdırıldı.

Həmçinin Orxan Əlili Seymur bəydən layihə haqqında elmi məqalənin Springer-in jurnallarından birində çap olunması üçün müraciət qaydasını, mərhələlərini və mümkünlüyünü öyrəndi.

Layihə rəhbəri "Fabrika Coworking mərkəzində" keçirilən layihələrin idarə olunması və təqdimatı ilə bağlı 2 təlimə qatıldı. Birinci təlim Ukraynan "Reprezent" şirkətinin qurucusu tərəfindən verildi və təlimdə layihəni yaxşı təqdim etmək üçün Power Point təqdimatının düzgün hazırlanması barədə danışıldı. Növbəti təlim isə Ukraynan "Happy Farm" texnologiya sahəsində çalışan layihələrin inkubasiya mərkəzinin qurucusu və rəhbəri Anna Deqtereva tərəfindən keçirildi. Təlimdə layihənin güzgün idarə olunması haqqında hər tərəfli məlumat verildi. Təlimlərin sonunda Orxan Əlili hər iki təlimçi ilə VideoCV platforması haqqında söhbət etdi və Ukraynada insan resurslarının axtarılması və idarə olunmasının hansı yollarla aparıldığını öyrəndi.

Sonuncu rüb ərzində saytla bağlı bütun statistik məlumat, həmçinin sorğuların, insan resursları mütəxəssislərin və xarici mütəxəssislərin fikirləri, həmçinin beynəlxalq araşdırmaların nəticələri toplanılmışdır. Məlumatların hamısı həm ayrılıqda, həm də birlikdə analiz olunmuşdur. Layihənin yerinə yetirilməsi zamanı əldə olunan nəticələr toplanılmış və ümumiləşdirilmişdir. Layihənin vacibliyi, perspektivliyi ilə bağlı əsas nəticələr çıxarılmışdır. "Mərkəzi VideoCV Platforması ilə insan resurslarının idarə edilməsi" layihəsinin rəhbəri Əlili Orxan Razim oğlu tərəfindən yekun hesabat hazırlanmışdır.

İlkin mərhələdə ilkin texniki işlər aparılmışdır və bu zaman bir sıra yeni texniki metod ve üsüllardan geniş istifadə olunmuşdur. Eyni zamanda tədqiq olunan sahədə Stenford və Nyu York Universitetinin tələbələri ilə ilkin təcrübəni əldə etmək üçün hansı üsul ve vasitələrdən istifadə etdiklərini eyni zamanda ilkin iş tapma prosesində onlardan daha çox şirkətlərin hansı bilik ve bacarıqları tələb etməsi kimi məsələlər barəsində sosial sorğular keçirtdik. Sorğular təqribi yaşı 20-35 olan ABŞ vətəndaşlarıyla aparıldı. Sorğu zamanı respondentlərin işə düzələrkən istifadə etdiyi texnologiyalar və şirkətlə ünsiyyət kanalları soruşuldu. İnnovativ alternativlərə münasibət araşdırıldı.

Layihənin yerinə yetirilməsi zamanı bir çox üsul və yanaşmalardan istifadə edilmişdir. Saytın qurulması zamanı ən yeni texniki üsüllardan istifadə edilmişdir. İstifadəçilərin davranış xəritəsini müəyyənləşdirmək və platformanı istifadəçilər üçün daha rahat etmək üçün xusüsi admin panel hazırlanmışdır. Həmçinin statistik məlumatları analiz etmək və nəticələr əldə etmək üçün müxtəlif üsullardan istifadə edilmişdir.

Sorğuların keçirilməsi zamanı bir çox üsullardan istifadə edilmişdir. Alınmış nəticələr xarici ölkələrdə keçirilən sorğular zamanı alınan nəticələrlə müqaisə olunmuşdur.

2 Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli)

100 %

3 Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir)

Layihənin icrası çərçivəsində aydın olmuşdur ki, VideoCV iş axtaraların işə düzəlmə şansını bir neçə dəfə artırır, onları digər namizədlərdən fərqləndiri, onların videocv çəkdiyi anadək hansı nəticələr eldə etdiyini və hansı səviyyədə olduqlarını göstərir və insanların 85%-i VideoCV çəkəndən sonra daha da inkişaf etmək, mühüm nəticələr əldə etmək istəyir. Bu da ona gətirir ki, daha çox insan öz təhsili ilə məşqul olur, öz sahəsində daha peşəkar olur, yeni bacarıqlar əldə

edir və dil biliklərini artırır. Bu isə öz növbəsində respublikamızın insan kapitalının yüksəlməsinə və nəticə olaraq ölkəmizin daha sürətlə çiçəklənməsinə güclü təkan verir. Həmçinin VideoCV çəkilən zaman iş axtaranda özünü təqdim etmək və ümümi təqdimat bacarıqları ortalama 300% artdığını müşayət etmək olar.

Platformanı istifadə edən iş axtarnlara nə üçün platformanı bəyənirsiniz sualını verdiyimiz zaman, məlum oldu ki, 80-85% istifadəçinin platformanı əlavə olaraq bəyəndiyi məqam ondan ibarətdir ki, onlar sayt üzərindən işə müraciət edəndən sonra öz şəxsi hesablarında müraciətin nəticəsini izləyə bilirlər. Müraciətin nəticəsi “Gözləyir”, “Baxılıb”, “İmtina edilib” və ya “Qəbul olunub” olaraq qeyd olunur. Bu isə işə qəbul prosesin şəffaflığını təmin edir, korrupsiya, rüşvətxorluq və tanışların işə götürülməsini çətinləşdirir. İş orasındadır ki, poçt ünvanına gələn CV-ni rahatlıqla silmək mümkündür və namizədin işə müraciət etdiyini öyrənmək demək olar ki, mümkün olmayacaq. Lakin platforma üzərindən edilən hər bir müraciət daim şirkətin hesabında qalır və onu ən pis halda ancaq ləğv etmək mümkündür. Bu isə insan resursları mütəxəssisin işə qəbul prosesini nə dərəcədə professional və obyektiv apardığını yoxlamaq üçün yaxşı imkan yaradır. Bir daha vurğulayaq ki, müraciətin nəticəsini iş axtaran tərəfindən izləmək imkanı olduğundan, şirkətin və iş axtaranın hesabından heç bir müraciəti silmək mümkün olmadığından Mərkəzi VideoCV platforması insanların uyğun olduqları işdə işləməyinə, şirkətin işləmə effektivliyinə və ölkə iqtisadiyyatına verdiyi xeyirin həcminə, insanların həyat səviyyəsinin qalxmasına və korrupsiyaya daha bir güclü zərbə vurmağa təkan yarada bilər.

Platformanın iş axtaranlara verdiyi daha bir imkan hesablarına daxil olaraq sadəcə şəxsi məlumatlarını doldurandan sonra hazır CV əldə etməkdir. Bu imkan əslində sahədə mövcud bir neçə problemi həll edir. Həll olunan məsələlərə aiddir:

- Namizədlərin CV hazırlama problemi. İlk dəfə CV hazırlayan şəxs yaxşı CV hazırlamaq üçün ortalama olaraq 5-10 saat vaxt xərcləyir. Bu CV-lərdə belə bəzi vacib məlumatlar buraxıla, struktur çətin ola, dizayn uyğun olmaya bilər. Bəzi namizədlər isə ümumiyyətlə CV hazırlamaq onlar üçün çətin olduğundan yalnız mətn şəklində özləri haqqında qısa məlumat göndərirlər. Elə namizədlər də var ki, internetdə yerləşdirilən hazır CV formalarını yükləyib, bəzi xanaları doldururlar və şirkətə göndərirlər. Sonuncu tip CV-ləri insan resursları mütəxəssisləri çox pis qiymətləndirirlər.
- İnsan resursları mütəxəssislərin müxtəlif strukturlu CV-ləri analiz etmə və CV-lər üçün mərkəzləşdirilmiş bir sistemin olmaması çətinliyi. Namizədlərin hamısı eyni strukturlu CV-lərlə işə müraciət etsə insan resursları mütəxəssislərin işi qat-qat asanlaşar, çünki eyni strukturlu CV-ləri analiz etmək və bu CV-lərdə lazımı məlumatı tez tapmaq asandır. Həmçinin eyni strukturlu CV-lər ən uyğun namizədi seçmək üçün daha effektiv və obyektiv üsuldur. Məsələ ondadır ki, dizayn bacarıqı və kreativliyi daha çox olan insan elə CV hazırlaya bilər ki, insan resursları mütəxəssisi subyektiv olaraq onun daha yaxşı olduğunu düşünər və onu seçər. Lakin daha təcrübəli, bilikli birisi CV-sini sadə şəkildə hazırlayar və ehtimal var ki, onun CV-si insan resursları mütəxəssisin yadında qalmaz, CV-sinin dizaynı daha yaxşı olan namizəd növbəti mərhələyə dəvət olunar.

Gördüyünüz kimi, iş axtaranlardan sadəcə məlumatlarını doldurmağı tələb edən platfroma iş axtaranlara hazır CV, insan resursları mütəxəssislərinə isə eyni strukturlu CV-lər və onları idarə etmək üçün funksional sistem təqdim edir. Beləliklə hər iki tərəfin vaxtına qənaət olunur və işləri asanlaşdırılır.

Layihənin icrası zamanı bir daha aydın oldu ki, VideoCV-nin və video müsahibənin əhəmiyyəti çox yüksəkdir. VideoCV-nin və video müsahibənin əsas üstünlüyü ondan ibarətdir ki, onlar hər iki tərəfin vaxtına qənaət edirlər, müsahibədən öncə namizəd haqqında ətraflı məlumat almağa imkan yaradırlar və hər iki tərəfin puluna qənaət edirlər (iş axtaran yola, iş verən isə müsahibə

üçün istifadə ediləcək məkana pul xərcləmir).

Araşdırmalar nəticəsində bəlli olmuşdur ki, Google, Facebook və Tvitter kimi şirkətlər iş axtaran namizədlərin CV lərini dəyərləndirmə metodlarında video müsahibələri (35%) hallarda tətbiq edir. İşə düzəlmək üçün Mayers-Briggs tipli və məntiq sualları tələb edən sınaqlar ləğv edilir. Əvəzində namizədlərin youtube üzərində yerləşdirdiyi şəxsi videolar (bacarıqları və bilikləri əks etdirən) müəyyən insan resursları bazasında daxil edilərək qərar vermə prosesinə birbaşa təsir edir. Video müsahibə əsasən Skype və Google hangouts proqramları üzərindən reallaşdırılır. Video CV-lər işə düzəlmə prosesini ikiqat sürətləndirir. Məhz bu vasitə ilə işə düzələn işçilərin 75%-i işlərində 3 il və daha artıq çalışaraq şirkətlər üçün məhsuldar iş görmüş olur. Nəzərə alsaq ki, orta statistik işə düzələn namizədlərin 45%-i elə həmin ildəcə işini tərk edir bu vasitənin istifadəsi mütləq hala çevrilməlidir.

Alınmış əsas nəticələrdən biri ondan ibarətdir ki, adi insanlar və insan resursları mütəxəssislər VideoCV konseptini bəyənirlər.

Lakin VideoCV-nin iş axtaranlar tərəfindən çəkilməsinə və iş axtarma prosesində aktiv istifadə edilməsinə bir sıra faktorlar maneə olurlar. Bu faktorlar aşağıdakılardır:

1) iş axtaranlar tərəfindən keyfiyyətli CV və ya VideoCV yaradılmasına qarşı tənbəllik, iş axtarma prossesinə diqqət yetirməmək;

2) videocv-nin milli mentalitetə uyğun olmadığını düşünmək;

3) utancaq olmaq;

4) qeyri-peşakar videocv yaratmaq qorxusu.

Daha bir nəticə ondan ibarətdir ki, insan resursları mütəxəssisləri namizədlərin qısa videocv-lərinə baxmaqda çox maraqlıdırlar. Onlar qeyd edirlər ki, namizədlər arasında bu üsül yayılsa, uyğun əməkdaş tampaq daha asan və daha tez olacaq.

Videocv-nin iş axtaranlar üçün nə qədər önəmli olduğunu bilmək üçün sadəcə bir məqamı vurğulamaq lazımdır: yaxşı videocv-si olan namizəd videocv-si olmayan namizəddən ən azı 5 dəfə daha çox və tez iş təklifini alır, üstəlik aldığı təklif daha yaxşı olur. Bu nəticələr xarici ölkələrdə aparılan araşdırmalar zamanı alınıb.

Həmçinin ölkəmizdə videocv-nin geniş yayıldığı halda yerli mütəxəssislərin xarici ölkələrdən iş təklifi almaq ehtimalı daha çox olur.

VideoCV-nin cəmiyyət arasında geniş yayılması, insan resursların inkişafında böyük təkan verəcək faktorlardan biridir.

4-cü rüb sonuncu olduğundan bu rüb ərzində daha çox iş görüldü. Əsas işlər ondan ibarət idi ki, platforma barədə məlumatı olmayanlar və məlumatı olanlardan bir daha platformanı təqdim etmək, platforma haqqında fikirlərini öyrənmək, bəyəndikləri və bəyənmədikləri məqamları aydınlaşdırmaq və platformadan hansı intensivliklə istifadə etdiklərini aydınlaşdırmaq. Həmçinin xarici mütəxəssislərə Mərkəzi VideoCV platformasını təqdim etmək, təkliflərini öyrənmək, mütəxəssislərin ümumi video texnologiyalar və onların gələcəyi haqqında fikirlərini öyrənmək prioritet məsələlərdən idi. Əlbəttə ki, bu rüb qrant vasitəsi ilə maliyyələşən sonuncu rüb olduğundan rübün sonuna yaxın layihənin icra müddəti ərzində əldə olunan stastik məlumatlar toplanılmış və analiz olunmuşdur. Daha sonra əldə olunan nəticələr ümumləşdirilmişdir.

Keçirilən sorğular zamanı müəyyən olunmuşdur ki, sorğuda iştirak edən 500 insanın 46%-ı layihə çərçivəsində yaradılan və videocv ideyası ilə tanınan www.vitalcv.com elektron resursdan xəbərdardırlar. Sorğuda iştirak edənlərin 31%-ı saytda qeydiyyatdan keçib və CV-sini yerləşdirib, 6%-ı isə həmçinin videocv yaradaraq onu saytdaki profillərinə yükləyiblər. Sorğuda iştirak edən

və platformada CV-sini yerləşdirənlərin 37%-ı isə hər həftə platformaya daxil olur.

Platformanın admin panelindən əldə olunan statistik nəticəni nəzərinizə çatdırırıq:

Ümumi olaraq platformadan qeydiyyatdan keçənlərin sayı – 1867 nəfər oldu. Qeydiyyatdan keçənlərin 88.9%-i platformadan aktiv şəkildə istifadə edir.

Qeydiyyatdan keçənlərin 70.3%-i cinsini qeyd edib. Belə ki bu 70.3% kütlənin 47.4%-ı kişi 22.9%-ı isə qadındır.

Qeydiyyatdan keçənlərin 33.1%-ı 18-25 yaşa malikdir.

Qeydiyyatdan keçənlərin 14.1%-ı 25-30 yaşa malikdir.

Qeydiyyatdan keçənlərin 6.5%-ı 30-40 yaşa malikdir.

Qeydiyyatdan keçənlərin 24.4%-ı 40 yaşdan yuxarıdır.

İlkin elmi nəticəmiz innovativ həlli yollarını istifadə etmə tərcihinin gəncləşmə tendensiyası istiqamətində getmədiyini və ölkə daxilində 40 yaş üzərində elektron istifadəçilərin olması və onların belə öz cv-lərini ənənəvi olmayan yollarla şirkətlərə çatdırma istəyini açıq aşkar şəkildə görmək olar.

Qısa müddət ərzində bu qədər istifadəçinin bizim platformamızdan qeydiyyatdan keçməsinin ən başlıca səbəbi gənc və orta nəslin nümayəndələrinin Facebook, İnstagram və Vine platformalarını aktiv şəkildə istifadə etmələridir. Apardığımız araşdırmalar göstərir ki, İnstagram və Vine da hazırlanmış qısa videoların sayı 100.000 ötmüşdür. Bu artıq istifadəçilərin gələcək davranış vərdişlərinin gedəcəyi istiqamət barədə verilən siqnaldır.

Həmçinin qeyd etmək lazımdır ki, platformadan 600-dən çox şirkət, QHT və dövlət qurumları (məsələn Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Beynəlxalq Əlaqələr və Hesablaşma Mərkəzi) qeydiyyatdan keçib. Onların 500-u iş elanlarını yerləşdirib. Ümümilikdə platfromada 800-ə yaxın iş elanı yerləşdirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə əməkdaşlıq planı hazırlandı və əməkdaşlığın ilk addımları atıldı.

Belarusda ezamiyyət zamanı Minsk şəhərində yerləşən Belarus Dövlət Universitetin tələbələri arasında aparılan sorğu nəticəsində bəlli oldu ki, tələbələr işə qəbul anketlərdə və CV-lərdə öz bilik bacarıqlarını və başqalarından fərqlərini göstərə bilmirlər. VideoCV və video müsahibə isə onlara bu istiqamətdə kömək edə bilər.

Minsk şəhərində beynəlxalq mütəxəssilərlə keçirilən görüşlər nəticəsində məlum oldu ki, video texnologiyanın gələcəyi tək statistik məlumatlarda deyil həmçinin mütəxəssislərin fikirlərində də çox yaxşı yer alıb. Videonun həyatımızın hər bir sahəsində müxüm rol oynayacağı əksər mütəxəssis tərəfindən qeyd olunmuşdur. Düzgün istiqamətdə getdiyimizə əminlik yaradan isə İE Business School-un professoru, İE Venture Lab-ın icraçı direktoru Paris de Letraz tərəfindən verilən məlumat oldu. Paris bildirdi ki, hal-hazırda İE Venture Lab-ın dəstək verdiyi VideoCV platformaları ABŞ, İngiltərə və Fransa kimi ölkələrdə öz fəaliyyətlərini uğurla davam etdirir.

Müxtəlif şirkətlərin və qurumların insan resursları mütəxəssisləri ilə keçirilən çoxsaylı görüşlər nəticəsində aydın oldu ki, mütəxəssislərin 85%-ı videocv-nin prosesə faydalı olduğunu hesab edir. İnsan resursları mütəxəssislərinin 30%-ı seçilmiş namizədlər üçün videocv hazırlanmasının mütləq hala çevrilməsini istəyir. 5% mütəxəssis isə artıq öz işində videocv sistemini tətbiq edir və bəhrəsini görür.

Həmçinin onu qeyd etmək lazımdır ki, layihə start götürəndən və maarifləndirmə işləri başlayandan bir neçə ay sonra Respublikamızın bir sıra şirkətləri və QHT-ləri işə qəbul,

könüllülük proqramına qəbul və müəyyən layihələrə qəbul zamanı namizədlərdən özləri haqqında qısa videolar hazırlamağı tələb etmişdirlər. Bu proseslər videocv platfroması üzərindən baş verməsə də, onu göstərir ki, işguzar insanlarımız layihənin icrası çərçivəsində aparılan maarifləndirmə işlərin yekununda videocv və video müsahibə ideyasını bəyəndilər və öz işlərində istifadə etmək çalışırlar.

Müxtəlif sahələrin ən uğurlu insanları artıq bir neçə ildir ki, insanlara mesajlarını video vasitəsi ilə ötürürlər. Yalnız bu vasitə ilə ötürülən məlumat tam aydın olur və izləyicilərə daha çox təsir edir. Məhz buna görə mühüm məsələləri əks etdirən mesajlar video üzərindən qeydə alınır və izləyicilərə ötürülür. Məsələn ölkə başçıların vətandaşlara müraciəti, müxtəlif mütəxəssislərin fikirləri daha çox video formatda hazırlanır və yayımlanır. Yazılı mətn və ya səsyazma artıq ikinci plana keçib və təsir gücü videodan çox aşağıdır. Hətta bir məsələni də nəzərə almaq lazımdır ki, videoya çəkilən adamlar uğurlu və nüfuzlu adamlar olduğundan video çəkməyə cəsarət edən və onu hər kəslə paylaşan digər adamlar da izləyicilər üçün uğurlu, maraqlı sayılır.

VideoCV və video müsahibənin xaricdə yayılmasını, effektivliyini və bir çox şirkət tərəfindən istifadə olunduğunu tək statistika bildirmir. Həmçinin xaricdə nüfuzlu şirkətlərdə çalışmaq istəyən həmyerlimizlə söhbət zamanı layihə icraçılar bir daha əmin oldular ki, xaricdə bu üsullar çox istifadə olunur. Xarici şirkətlərə işlə bağlı müraciət edən həmyerlimiz işə qəbul prosesini aşağıdakı kimi göstərdilər:

1. Rezume göndərirlər və ya formanı doldururlar (qeyd etmək lazımdır ki, bir çox hallarda işə müraciət üçün anketdə belə namizəddən videolarına baxmaq üçün link yerləşdirmək tələb olunur)
2. Video müsahibədən keçirlər (əksər hallarda hər namizədlə 2-3 video müsahibə təşkil olunur)
3. Namizəddən özü və ya nə üçün şirkətdə işləmək istədiyi barədə video hazırlamaq tələb edirlər
4. Yalnız yuxarıdaki mərhələləri uğurla keçən namizədləri ofisə dəvət edirlər.

Bu prosesdə göründüyü kimi əsas namizəd seçimi video müsahibə və videocv vaistəsi ilə edilir.

Araşdırmaların yekununda layihə icraçıların gəldiyi nəticə belə oldu ki, VideoCV və video müsahibələrin geniş yayılması və bu üsullardan istifadə olunması həm iş axtaranların hazırlıq, bilik və bacarıq səviyyəsini, həm də insan resursaların idarə olunmasını, işə qəbul prosesini yeni, daha yüksək, effektiv mərhələyə daşıyacaq.

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

Layihə rəhbəri Seymur Rəsulovdan layihə haqqında elmi məqalənin dunyanın ikinci ən böyük və nüfuzlu elmi nəşriyyat evi olan Springer nəşriyyat evinin elmi-texniki jurnallarından birində çap olunması üçün müraciət qaydasını, mərhələlərini və mümkünlüyünü öyrəndi. Yaxın gələcəkdə elmi məqalənin çapa göndərilməsini söylədi və bu istiqamətdə Seymur bəydən kömək istədi.

| | | |
|---|---|---|
| | Həmçinin İspaniyanın Madrid şəhərində yerləşən dünyanın ən nüfuzlu biznes məktəblərindən olan İE Business School ilə layihə haqqında elmi məqalənin çap olunması istiqamətində işlər görülür.<br><br>Yerli elmi jurnallarda məqalənin çap olunması üçün yerli həmkarlarla əlaqələr yaradılır.<br><br>Yüksək Texnologiyalar Parkının rezidentləri barədə kataloqda layihə, layihənin yerinə yetirildiyi şirkət barədə məlumat və əlaqə vasitələri dərc olunmuşdur.<br><br>BakuTel 2014 beynəlxalq texnologiya sərgisinin toplusunda layihə barədə məlumat və əlaqə vasitələri dərc olunmuşdur.<br><br>Minsk şəhərində təşkil olunmuş "IE Venture Day" beynəlxalq tədbirinin veb-səhifəsində layihə barədə məlumat və əlaqə vasitələri dərc olunmuşdur. | |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər | |
| | Mərkəzi VideoCV platformasının patentləşdirilməsi lazımlı bir məsələdir. Azərbaycanda işləyən (layihə icra olunan zaman saytlar quran bir şirkət ideyamızı bəyənərək oğurlamaq fikrinə gəlmişdi və videocv.az – videocv platformasını qurmuşdu, lakin maarifləndirmə işləri aparılmadığından veb-sayt istifadə olunmadı) belə bir platforma yoxdur. Xaricdə isə yalnız VideoCV-lər üzərində cəmləşən platformalar mövcuddur. Layihə çərçivəsində yaradılan platformanın işləmə mexanizmi isə yalnız videocv-lərlə bitmir. Bu platformada həmçinin iş axtaranlar öz cv-lərini yarada, iş elanlarına müraciət edə, müraciətin nəticəsini izləyə bilərlər. Şirkət nümayəndələri isə patformada şirkətlərinin profilini yarada, vakansiyalar yerləşdirə, cv və videocv-lərə baxa, namizədlərə platforma üzərinddən mesaj yaza, uyğun namizədlərlə video görüş keçirə və iş axtaranlardan filtır funksiyası vasitəsi ilə müəyyən ölçü vahidlərini seçərək uyğun namizədi tapa bilərlər. Yanı bu qədər funksiya cəmləşdirən ikinci bir videocv platforması mövcud deyil və bunu patentləşdirmək lazımdır.<br><br>Layihə çərçivəsində yaradılan platformanın yalnız layihənin icra vaxtında deyil, həmçinin layihə bitəndən sonra layihə rəhbərinə platformanın ölkə əhalisi tərəfindən aktiv istifadə olunması üçün geniş maarifləndirmə işlərini aparmaqda köməklik göstərmək təklif olunur. VideoCV-nin cəmiyyət arasında yayılması üçün genişmiqiyaslı tədbirlər görmək vacib məsələlərdəndir.<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə VideoCV-nin təbliği üçün tədbirlər və layihələr yerinə yetirmək. Bir neçə şirkətə videocv-lər və video müsahibələr vasitəsi ilə işə qəbul prosesini həyata keçirməyə tövsiyyə etmək.<br><br>Platformanın imkanları Asan Xidmət tərəfindən istifadə olunması və insanlara Asan CV, Asan VideoCV xidmətinin verilməsi üçün həmin quruma platfromanı tətbiq etməklə bağlı məktub | |

göndərmək və platformanı tövsiyyə etmək.

VideoCV və video müsahibələr servisini aktivləşdirmək üçün müəyyən servis haqqı ayırmaq.

| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
|---|---|

Layihə üzrə ilk ezamiyyət 2014-cü ilin iyul ayında ABŞ-a teşkil olundu. Ezamiyyət zamanı ABŞ-ın Nyu-York, Çikaqo və San-Fransisko şəhərlərində eləcədə Silikon Vadisində ki, aparıcı şirkətlər olan Fuze və Box şirkətlərində sorğular aparıldı və elmi tədqiqatla bağlı bir sıra görüşlər keçirildi.

Mərkəzi VideoCV Platformasının insan resurslarının idarə olunmasında mövcud effektivliyini araşdırmaq və eyni zamanda dünyanın inkişaf etmiş ölkəsi olan Amerikada bu sahə üzrə hansı innovasiyaların tətbiq olunmasını araşdırmaq üçün layihənin iştirakçıları ABŞ-a yollanılması təklifi irəli sürülmüşdü. Beləliklə, layihə üzrə iki nəfərlik ezamiyyət ABŞ-a təşkil olundu. Ezamiyyət zamanı Amerikanın Nyu-York, Çikaqo və San-Fransisko şəhərlərində eləcədə Silikon Vadisindəki, aparıcı şirkətlərdən biri olan FuzeBox şirkətində elmi tədqiqatla bağlı bir sıra görüşlər keçirildi. FuzeBox şirkətinin texniki heyəti bizə video-streaming yani video yayımlama texnologiyalarının insan resursları sahəsində ola biləcək potensial istifadə imkanlarından danışdı. Canlı konferans edə bilməni asanlaşdıran xüsusi back-end panelin xüsusiyyətləri barədə brifing verdilər.

Bildiyiniz kimi Amerika StartUp-ların məskənidir və dünyanın ən müasir texnoloji şirkətləri olan İBM, Microsoft, Facebook, Amazon və Google kimi nəhənglər məhz buradan öz fəaliyyətinə başlamış və böyük nailiyyətlər əldə etmişdilər. Amerikada bir sıra şəhərlər mövcuddur ki, startuplar məhz burada cəmləşirlər. Bu şəhərlərə Nyu York da daxildir və bu səbəbdən biz heyət olaraq məhz Nyu York-da bəzi startup nümayəndələri ilə də görüşlər keçirtdik və eyni zamanda "Videotexnologiyaların cəmiyyətdə rolu və insanların yeniliklərə nə qədər açıq olub-olmaması ilə bağlı" mini sorğu da keçirdik. Nyu York şəhərinin inkubasiya mərkəzlərinin fəaliyyəti və struktur vahidlərinin fəaliyyəti də diqqətimizdən yayınmadı. Nyu Yorkda sırf startupların fəaliyyətini və inkişaf etməsinin təmin etmək məqsədilə 10 illik vergilərdən azad olunma tətbiq olunur (Pay zero taxes for 10 years), bu da öz növbəsində bu şəhərdə çoxlu sayda Vençur Kapital şirkətlərinin, Maliyyə Fondlarının və təbii olaraq StartUpların bir araya gəlməsinə böyük təkan vermişdir. Nyu York kimi proqressiv meqapolisdə videocv texnologiylarının sürətli inkişafı və effektivliyi barəsində StartUp forumunda maraqlandıq, ekspertlərin (Stiv Marli, Frederik Conatan) fikrincə məhz VideoCV və Videoİntervyu məhz gələcəyin texnologiyasıdır və 2-3 il sonra dünyanın işədüzəlmə standartlarını məhz bu texnologiya dəyişəcəkdir. Eyni zamanda bu cür əhəmiyyətli məlumatlarla kifayətlənməyərək Nyu Yorkun və dünyanın tanınmış və prestijli universiteti olan Nyu York universitetinin bir qrup tələbələri arasında da yuxarıda qeyd edilmiş mini sorğunu aparmaq imkanından yararlandıq. 2 gün müddətində 100 nəfər (20-35 yaş arası) tələbə arasında Videotexnologiyaların cəmiyyətdə rolu və insanların yeniliklərə nə qədər açıq olub-olmaması ilə bağlı tələbələrə sual verilirdi. Nəticə etibarilə 75 nəfər bu tip texnologiyaların böyük təsirə və rola malik olduğunu, 13 nəfər malik olmadığını bildirdi. Qalan 12 nəfər heç bir rəy söyləmədi. Eyni zamanda tədqiq olunan sahədə Stenford və Nyu York Universitetinin tələbələri ilə ilkin təcrübəni əldə etmək üçün hansı üsul ve vasitələrdən istifadə etdiklərini eyni zamanda ilkin iş tapma prosesində onlardan daha çox şirkətlərin hansı bilik ve bacarıqları tələb etməsi kimi məsələlər barəsində sosial sorğular keçirtdik. Sorğu zamanı respondentlərin işə düzələrkən istifadə etdiyi texnologiyalar və şirkətlə ünsiyyət kanalları soruşuldu. İnnovativ alternativlərə münasibət

araşdırıldı. Nəticə etibarilə sorğuda iştirak edənlərin 79 nəfəri iş tapmaqda daha yeni texnoloji üsulların tətbiq olunmasını, 19 nəfər isə klassik iş axtarma üsulunu bəyəndiklərini söylədilər (2 nəfər respondent rəy bildirmədi).

Ardınca Nyu Yorkdan ABŞ-ın Çikaqo şəhərinə yollandıq. İllinois ştatının şəhəri Çikaqoda bildiyimiz kimi bir sıra Çikaqo universitetinin müəllimləri və ekspertləri ilə sırf bu məsələ ilə bağlı maraqlı söhbətimiz oldu. Müzakirələr zamanı bəlli oldu ki, Oracle, Google, Facebook, Bank of America kimi nəhənglər artıq bu texnologiyalara son 2-3 ildir ki, nəzər yetiriblər və hətta bu sahədə fəaliyyətə başlayan bir sıra startup-ların alınmasına da böyük maraq göstərirlər (Gethired.com və bu kimi digər saytların). Araşdırmalar nəticəsində bəlli olmuşdur ki, Google, Facebook və Tvitter kimi şirkətlər iş axtaran namizədlərin CV lərini dəyərləndirmə metodlarında video müsahibələri 35% hallarda tətbiq edir. İşə düzəlmək üçün Mayers-Briggs tipli və məntiq sualları tələb edən sınaqlar ləğv edilir. Əvəzində namizədlərin youtube üzərində yerləşdirdiyi şəxsi videolar (bacarıqlar və bilikləri əks etdirən) müəyyən insan resursları bazasında daxil edilərək qərar vermə prosesinə birbaşa təsir edir. Video müsahibə əsasən Skype və Google hangouts proqramları üzərindən reallaşdırılır. Videocv-lər işə düzəlmə prosesini ikiqat sürətləndirir. Bu tip məlumatların əldə olunması məhz bizim layihənin nə qədər vacib olmasına dəlalət edir.

Çikaqodan sonra dünyanın startup mərkəzi olan San Fransisko şəhərinə üz tutduq. ABŞ-ın Kaliforniya ştatında yerləşən San Fransiskoda mobil tətbiqin yaradılması ilə bağlı seminarda iştirak etdik. Bu seminarda dünyanın bir sıra ölkələrindən nümayəndələr iştirak edirdi (Ukrayna, BƏƏ, Rusiya, Türkiyə, Almaniya və.s.). Seminar boyu mobil tətbiqlərin Android və İOS əməliyyat sistemlərində yaradılması ilə yanaşı investorların maraqlarını cəlb etmə üsullarından da söhbət açıldı. Seminarın koordinatoru Adil Əhsani bizə işə düzəltmə saytlarının mobil tətbiqi necə dizayn edilməlidir və platforma şəklinə necə gətirməli olmamız barədə məlumat verdi. Görüş zamanı lahiyəmiz çərçivəsində bizim üçün müvafiq mobil tətbiq qurmaq təklif edildi. Elmi işimiz Adil Əhsaninin və komandasının marağına səbəb olmuşdu.

Beləliklə biz layihə heyəti olaraq bu nəticəyə gəlmişik ki, ölkəmizdə video müsahibə və cv platformasını yaradaraq ABŞ Silikon Vadisindəki şirkətlərin keyfiyyət əmsalını artıran bu yeni metodlardan istifadə edilməlidir. Belə ki, məhz bu vasitə ilə işə düzələn işçilərin 75%-i işlərində 3 il və daha artıq çalışaraq şirkətlər üçün məhsuldar iş görmüş olur. Nəzərə alsaq ki, orta statistik işə düzələn namizədlərin 45%-i elə həmin ildəcə işini tərk edir bu vasitənin istifadəsi mütləq hala çevrilməlidir. Videocv-ləri və video yayımlama məlumatlarını özündə birləşdirən güclü server və həmin serverin bağlı olduğu bir sayt bizim elmi lahiyəyə təkan verəcək. Ezamiyyət zamanı qəbul edilmiş ən vacib qərar isə məhz Fuze şirkətinin rəsmiləri ilə müzakirə əsasında meydana gəldi. Belə ki onların məsləhətinə əsasən elmi işin strukturunu vitalcv.com saytının back-end panelinə bərkidib həmin paneldə işə düzəlmək istəyən və onları onlayn şəkildə filterləmək istəyən şirkətləri daha effektiv şəkildə analiz etmək olacaq.

Bu qərar bizim lahiyəmiz müddətində bəlkə də ən istiqamət verici rol oynayır. Panelin universitet tələbələri üçün nəzərdə tutulmuş xüsusi modulu hazırlanaraq təhsil mərkəzlərində keçirilən əmək yarmarkalarını daha detallı analiz etmə imkanı yaradacaq. Hazırda bu işləri görən komandamız ezamiyyətin əhəmiyyətini konkret şəkildə dərk etdi və nəticəsində daha səmərəli və daha kreativ ideyalar irəli sürərək mərkəzi videocv platforması onun HR sahəsində istifadə olunma perspektivlərini daha da artırdı.

21-28 aprel tarixlərində layihə rəhbəri Əlili Orxan Razim oğlu Belarusun Minsk şəhərinə ezam olundu. Ezamiyyətin əsas məqsədi “IE Business School”-un professoru, İE Venture Lab-ın icraçı direktoru Paris de Letraz və “IE Business School”-un MDB ölkələri üzrə direktoru Tatyana

Kretova ilə layihə ətrafında elmi mübadilələr aparmaq idi.

Mərkəzi VideoCV Platforması haqqında beynəlxalq tədbirin səhnəsindən məlumat vermək, texnologiya sahəsinin qurularından məsləhət almaq, layihənin inkişafı, Azərbaycanda və MDB ölkələrində onun tətbiqi ilə bağlı müzakirələr aparmaq, insan resurslarının idarə olunmasında mövcud effektivliyini araşdırmaq və eyni zamanda MDB ölkələrindən biri olan Belarusda bu sahə üzrə hansı innovasiyaların tətbiq olunmasını araşdırmaq, həmçinin layihə haqqında məqalənin xarici mənbələrdə (jurnallarda) dərc edilməsinə nail olmaq, layihə ətrafında elmi mübadilələr aparmaq üçün 21-28 aprel tarixlərində layihə rəhbəri Əlili Orxan Razim oğlu Belarusun Minsk şəhərinə ezam olundu.

Əzamiyyətin elə ilk günündə, yanı 21 aprel tarixində, layihə rəhbəri Minskin texnoloji inkubasiya mərkəzində bir neçə uğurlu texnoloji şirkətin qurucusu və rəhbəri, yeni texnologiya sahəsində çalışan onlarla layihənin mentoru, "CCC Startups"-ın baş partneru və texnologiya sahəsinin qurusu Maks Gurvits ilə görüşdü. Maks layihə rəhbərini dinləyəndən sonra bildirdi ki, video texnologiya gələcəyin texnologiyasıdır və bu texnoloiyadan günü gündən həyatımızın hər sahəsində daha çox istifadə olunur. Məhz bu prizmadan layihə çox əhəmiyyətlidir və onun gələcəyi var. Həmçinin Maks bildirdi ki, ABŞ və Avropanın aparıcı ölkələrində videocv xidmətini verən şirkətlər var və onlar yetərincə uğurlu işləyirlər. Layihə rəhbəri isə öz növbəsində bildirdi ki, layihə çərçivəsində yaradılan platformanın işləmə mexanizmi yalnız videocv-lərlə bitmir. Bu platformada həmçinin iş axtaranlar öz cv-lərini yarada, iş elanlarına müraciət edə, müraciətin nəticəsini izləyə bilərlər. Şirkət nümayəndələri isə patformada şirkətlərinin profilini yarada, vakansiyalar yerləşdirə, cv və videocv-lərə baxa, namizədlərə platforma üzərinddən mesaj yaza, uyğun namizədlərlə video görüş keçirə və iş axtaranlardan filtır funksiyası vasitəsi ilə müəyyən ölçü vahidlərini seçərək uyğun namizədi tapa bilərlər. Maks ətraflı məlumat alandan sonra dedi ki, qonşu Turkiyə və ya Rusiyada bu layihəni yerinə yetirmək daha asan olardı, çünki həmin ölkələrdə həm potensial istifadəçi sayı çoxdur, həm də mentalitet maniyyələr törətmir. Görüşün sonunda Maks tədbirdə çıxış ilə bağlı bir neçə məsləhət verdi.

Növbəti gün texnologiya sahəsində yeni həllər təklif edən "OneClick" şirkətinin rəhbəri Qriqoriy Maksimelyanko ilə görüş keçirildi. Görüş zamanı Qriqoriy məlumat verdi ki, onun şirkəti istənilən veb-platformada (veb-saytda) video görüş funksiyasının quraşdırılması ilə məşquldur. O dədi ki, "OneClick" şirkətinin əsas sifarişçiləri tibb mərkəzləri və təhsil mərkəzləridir (əsasən distant təhsil mərkəzləri). Qriqoriy bildirdi ki, artıq 50-dən çox mərkəzin veb-saytında onlar tərəfindən qurulan video görüş funksiyası işləməkdədir. Qriqoriy təcrübəsinə əsasən söylədi ki, video görüşün istənilən sahədə istifadəsinin əsas üstünlüyü ondan ibarətdir ki, hər iki tərəf vaxtına qənaət edir (görüşə hazırlıq, yol, gözləmə proseslərinə vaxt itirmir), xidmətin ödənişi daha ucuz olur (müştəriləri qəbul etmək üçün ofisin saxlanılmasına ehtiyac yoxdur) və nəzarət etmək imkanı daha çox olur (video görüşləri sifarişçinin istəyi əsasında serverin yaddaşında saxlamaq mümkündür, bu isə qurumun və ya şirkətin rəhbərinə, keyfiyyətə nəzarət şöbəsinin işçilərinə istənilən görüşün necə keçdiyinə baxmağa imkan verir. Görüşün sonunda Qriqoriy vurğuladı ki, layihə rəhbərinin gördüyü iş çox faydalıdır; videocv və video görüşlər insan resursların idarə olunması üçün yaxşı təkan yarada bilər. Görüşün nəticəsində video görüşlər istiqamətində əməkdaşlıq və MDB ölkələrində "Mərkəzi VideoCV platforması" haqqında məlumatın yayılması razılığı alındı.

Minskdə keçirilən 3-cü gün ən məhsuldar gün kimi yadda qaldı. Həmin gün layihə rəhbəri Əlili Orxan "İE Business School"-un (İspaniya, Madrid) və "Bel.Biz"-in təşkilatçılığı ilə keçirilən "İE Venture Day" tədbirində öz layihəsi ilə çıxış etdi. Tədbirin əhəmiyyəti o qədər yüksək idi ki, dünyanın hər tərəfindən texnologiya sahəsinin mütəxəssisləri yığışmışdır. Həmin tədbirdə Facebook, Google, Microsoft, TechCranch jurnalı (texnologiya sahəsində ən çox oxunan jurnal, veb-sayt), EPAM (şəxsən qurucusu), İE Business School, İE Venture Lab, Bel.Biz, Britaniya

səfirliyi (şəxsən Britaniyanın səfiri) və digər tanınmış şirkətlərin yüksək vəzifəli təmsilçiləri iştirak etmişdir. Həmçinin ölkəmizdən Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəznində yaradılan Yüksək Texnologiyalar Parkının icraçı direktoru Seymur Ağayev, həmin qurumun startup-larla iş üzrə şöbəsinin rəhbəri Ülvi Aslanov və digər qurumların, layihələrin rəsmiləri iştirak etmişdilər. Seymur Ağayev tədbirdə ekspert qismində çıxış etmişdir və tədbirin 2015-ci ilin dekabr ayında Bakıda Yüksək Texnologiyalar Parkının təşkilatçılığı ilə keçirilməsinə nail olmuşdur.

Layihə rəhbəri Orxan Əlilinin 1000-ə yaxın izləyici və ekspert qarşısındakı çıxışı böyük marağa səbəb oldu və ekspertlər tərəfindən bir neçə sual verildi. Suallardan biri Paris de l'Etraz (IE Venture Lab-ın icraçı direktoru, İE Business School-un professoru, PhD) tərəfindən gəldi və sualın məğzi ondan ibarət idi ki, Mərkəzi VideoCV platformanın fərqi digər VideoCV platformalardan nədədir. Layihənin gəlir gətirib gətirmədiyini digər ekspert soruşdu. Ekspertlərdən biri isə Azərbaycanın iki nəhəng qonşusu Rusiya və Türkiyədə bu layihənin tətbiq olunmasının planda olub olmadığını soruşdu. Layihə rəhbəri səhnədəcə bütün suallara aydınlıq gətirdi.

Tədbirdən sonra eksperlər və spikerlər üçün şam yeməyi təşkil olunmuşdur. Şam yeməyi zamanı layihə rəhbəri hər ekspertlə ayrılıqda danışdı. Google şirkətinin biznesin inkişafı üzrə meneceri Natalya Korobko ilə söhbətin əsas istiqaməti layihə barədə məlumatın geniş kütləyə çatdırılması üçün Google şirkətinin yeni texnologiyalarından, həmçinin axtarış sistemindən istifadə prinsipləri, bu istiqamətdə ekspertin verə biləcəyi məsləhətlər və dünyanın ən böyük video portalı olan Youtube portalının video yayım, videoların saxlanılması və video görüş sahəsində verdiyi digər xidmətlər haqqında məlumatın əldə olunması idi. Həmçinin video texnologiyanın gələcəkdə inkişaf istiqamətləri haqqında qısa xülasə verildi.

Texnoloji yeniliklər haqqında dünyanı məlumatlandıran TechCrunch jurnalının redaktoru Mayk Batçer ilə söhbət zamanı Mike videocv-lərinin gələcəyinə inandığını söylədi və işimizə fokuslanıb inamla onu davam etdirmək tövsiyyə etdi.

Şam yeməyi zamanı Orxan bəy Facebook-un şərq və yaxın şərq Asiya ölkələri üzrə satış direktoru Klayv Ryan ilə də söhbət etdi. Söhbət Facebook vasitəsilə daha çox insana məlumatın verilməsi yollarından və videonun indiki perfomansı və gələcək perspektivləri haqqında getdi. Klayv bildirdi ki, əgər əvvəl istifadəçilər ən çox yalnız yazılı status paylaşırdırlarsa, indi paylaşılan məlumatın 60-70% şəkillər ilə birlikdə paylaşılır və şəkillərlə paylaşılan məlumata maraq müqaisə olunmayacaq qədər yüksəkdir. Həmçinin ekspert bildirdi ki, artıq bir neçə ildir ki, Facebook üzərindən istifadəçilər qısa videolarını paylaşırlar və bu zaman ərzində videolara maraq stabil olaraq artmaqdadır. Klayv bildirdi ki, Facebook və ya Youtube üzərindən özü və həyatı haqqında qısa videolar paylaşan istifadəçilərin izləyiciləri çoxdur və onlar video paylaşmayan istifadəçilərə nisbətdə insanlara daha maraqlı və uğurlu görsənirlər.

Orxan bəy Microsoft-un təmsilçisi Elisa Sass ilə də söhbət etdi. Layihə rəhbəri Elisa xanıma bildirdi ki, başçılıq etdiyi layihə Microsoft-un BizSpark proqramının üzvü seçilmişdir. Elisa xanım layihə rəhbərinə BizSpark-ın bütün üstünlükləri haqqında detallı məlumat verdi.

Super Appli şirkətinin biznesin inkişafı üzrə baş meneceri Tsutomu Gabriel Komori ilə söhbət zamanı yaponiyada video və videocv-lərə qarşı münasibət, həmçinin istifadə olunma dərəcəsi öyrənildi. Məlumat üçün bildirək ki, Tsutomu və onun tanışları Bakını çox bəyənirlər.

Nüfuzlu Capital Times şirkətinin partneru Aleksander Kerşteyn layihə haqqında məlumat alandan sonra layihənin Belarus və Ukraynada reallaşmasına dəstək verə biləcəklərini söylədi və növbəti gün layihə rəhbəri ilə görüş planlaşdırdı. Görüş zamanı layihənin hansı mərhələdə olduğu və yuxarıda qeyd olunan ölkələrdə reallaşması üçün nələr tələb olunduğu aydınlaşdırıldı.

Ən çox gözlənilən görüş İE Business School-un professoru, İE Venture Lab-ın icraçı direktoru

Paris de Letraz ilə görüş idi. Bu görüşdə dünyada ən çox nüfuza malik biznes universitetlərdən biri olan İE Business School-un məzunları iş axtararkan hansı yollar və üsullardan istifadə etdiyini və universitetin onlara necə kömək etdiyini, hansı maariflәndirici tədbirlər görüldüyü haqqında məlumat toplamaq, həmçinin universitetin yaratdığı və Parisin başçılıq etdiyi investisiya labaratoriyası tərəfindən hansı insan resursları platfromasına maliyyə yatırdıqlarını öyrənmək idi. Şam yeməyi zamanı bunlar haqqında ətraflı danışmaq üçün bazar ertəsinə (27 aprel) görüş təyin olundu.

Belarusda ən çox istifadə olunan işə düzəlmə üsullarını araşdırmaq üçün 24 aprel tarixində layihə rəhbəri Belarus Dövlət Universitetin (BDU) bir neçə qrup tələbəsi ilə görüşüb danışdı. Görüş zamanı aydın oldu ki, Belarusda videocv platforması mövcud deyil. İnsanlar iş axtararkan ən çox istifadə etdiyi üsul konkret iş yerinin anketini doldurmaqdır. Lakin tələbələr bilrirdilər ki, bu üsullar artıq köhnəlib və onlar texnologiyadan istifadə edərək öz bilik bacarıqlarını daha yaxşı şəkildə göstərmək istəyirlər.

Minskdə olarkan layihə rəhbəri Belarusda fəaliyyət göstərən şirkətlərinin insan resursları mütəxəssislərinin email ünvanlarını toplamışdır. Ezamiyyətdən qayıdandan sonra layihə rəhbəri həmin mütəxəssislərə işə götürmə üsulları və videocv haqqında məktub yazdı. Məktuba cavab verən mütəxəssislər bildirdi ki, hal-hazırda namizdələrin videocv-ləri olmadığından və maariflәndirmə işləri aparılmadığından işə qəbul prosesi videocv istifadə olunmadan həyata keçir. Lakin namizədlər videocv-lərini hazırlasalar bu proses daha sürətlə gedər, effektiv olar və az vaxt aparar.

27 aprel tarixində keçirilən görüşdə Parisdən savayı İE Business School-un MDB ölkələri üzrə direktoru Tatyana Kretova da iştirak etdi. Görüş zamanı layihə rəhbəri layihə haqqında bir daha tam məlumat verdi və yaranan sualları cavabladı. Paris bildirdi ki, layihə həqiqətən dəyərli layihədir və bu layihənin yerinə yetirilməsini öz üzərinə götürən və uğurla yerinə yetirən heyəti gələcəkdə yaxşı nəticələr gözləyir. İE Business School-un məzunlarına gəldikdə, universitet tərəfindən məzunlarına ən muasir və effektiv iş axtarma üsulları haqqında məlumat verilir və əldə olunan məlumatın bərkidilməsi üçün ev tapşırığı olaraq CV, videocv, istək məktubu və tövsiyyə məktublarını hazırlamaq tapşırılır. Videonun əhəmiyyətini yüksək qeyd edən Paris bildirdi ki, bu həmçinin insan resursları mütəxəssisinə təsir edə biləcək ən güclü psixoloji alətdir. Həmçinin Paris bildirdi ki, İE Venture Lab-ın icraçı direktoru olaraq məhz VideoCV platformasını yaradan məzunlarına işi yerinə yetirmək üçün maliyyənin ayrılması haqqında sənədləri şəxsən imzalayıb. Və hal-hazırda İE Venture Lab-ın dəstək verdiyi VideoCV platformaları ABŞ, İngiltərə və Fransa kimi ölkələrdə öz fəaliyyətlərini uğurla davam etdirirlər.

28 aprel tarixində layihə rəhbəri Minsdən Bakıya qayıtdı.

7 Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa)

*(burada doldurmalı)*

8 Layihə üzrə digər tədbirlərdə iştirak

ABŞ-ın Kaliforniya ştatında mobil tətbiqin yaradılması ilə bağlı seminarda iştirak etdik. Fuze və Box şirkətlərinin texniki heyəti ilə görüşümüz oldu.

Universitetlərlə görüşlər keçirildi. Belə ki, Dövlət İqtisad Universiteti, Qafqaz Universiteti karyera planlama mərkəzləri ilə təmas quruldu. Həmin universitetlərin rəsmiləri ilə "onlayn yarmarka" edə bilmə potensialı müzakirə edildi. Tələbələrin innovativ yollarla iş axtarma şansı barədə seminar və konferanslar keçirilməsi barədə təkliflər edildi.

İş axtaranların inamla tez bir zamanda hazırlıq səviyyələrinə uyğun işin tapılması üçün 2 təlim

təşkil olunmuşdur. Təlimlər zamanı VideoCV-nin önəmi barədə də məlumat verilmişdir. İştirakçılara VideoCV çəkilməsi ilə bağlı təlimat verilmişdir.

29 oktyabr tarixində Yüksək Texnologiyalar Parkında Keyi Strategies-in rəhbəri Dr. Ruth Shapiro tərəfindən Mentorluq proqramında və "Sosial Sahibkarlıq nədir?" təqdimatında iştirak edilmişdir.

Layihənin icrası zamanı yaradılan Mərkəzi VideoCV Platforması ilə MilliNet – Milli İnternet Mükafatı yarışmasına müraciət edilmişdir, tədbirdə iştirak edilmişdir və platforma servis nominasiyasında 4-cü yerə layiq görülmüşdür.

Layihə rəhbəri Asan Könüllülər Gənclər Təşkilatı və ADA Angels tərəfindən ADA Universitetində təşkil olunmuş "1 Gənc 1 Uğur 1 Hekayə" tədbirində iştirak etmişdir və 500-dən çox iştirakçıya layihə barədə qısa məlumat vermişdir.

Layihə rəhbəri icraçılarla birgə BakuTel 2014 texnologiya sərgisində Yüksək Texnologiyalar Parkının stendində yer alaraq ziyarətçilərə layihə və sayt barədə məlumat vermişdir. Ziyarətçilərdən bir çoxu saytla tanış olduğunu və istifadə etdiyini qeyd etmişdir.

Həmçinin sərgi zamanı cənab Nazir Əli Abbasova layihə barədə məlumat verilmişdir.

Layihə rəhbəri və proqramçı yanvar ayın sonu, fevral ayın əvvəlində "Yüksək Texnologiyalar Parkı" (YTP), "Bakcell" şirkəti və "Microsoft" şirkətinin Azərbaycandakı nümayəndəliyi tərəfindən "YTP"-da keçirilən BizSpark proqramının təqdimatında iştirak etmişdilər.

Mərkəzi VideoCV Platformasını texniki cəhətdən inkişaf etdirmək, proqramçıya vacib və yeni alətlər, proqram təminatları təqdim etmək, həmçinin platformanı daha da mükəmməl etmək üçün layihə rəhbəri layihəsi ilə birgə Microsoft BizStark proqramına müraciət etdi. Qısa zaman ərzində proqrama müraciətlə bağlı təstiq aldı və dünya üzərində texnologiya sahəsində çalışan, yenilik gətirən, həmçinin texnologiyanın inkişaf yollarını araşdıran layihələrdən ibarət qrupa daxil oldu. Qeyd etmək lazımdır ki, Microsoft-un BizSpark proqramına yalnız ən önəmli və perspektivli layihələri dəvət edib, təstiqləyirdilər. Bu da onu göstərir ki, "Mərkəzi VideoCV Platforması ilə insan resurslarının İdarə edilməsi" layihəsi və bu layihə çərçivəsində yaradılan platforma insan resurslarının və insan resursları mütəxəssislərin işini asanlaşdırır, daha effektiv edir və vaxtlarına qənaət edir.

Microsoft BizSpark Microsoft şirkətinin 2009-cı ildə başladığı beynalxalq proqramdır. Proqram çərçivəsində texnologiya sahəsində çalışan yeni şirkətlərə və heyətlərə texnoloji alətlər (software) və lisenziyalı proqram təminatı verilir.

BizSpark proqramının əsas məqsədlərinə daxildir:

- Xərclərin azaldılması
- Yeni layihələrə ekspert dəstəyi vermək imkanı
- Proqramlaşdırma, dizayn, proqram məhsulların sınağı, vebsaytın internetdə yerləşdirilməsi üçün texnologiyanın seçimində kömək
- MSDN-dən istifadə etmək imkanı
- İstehlakçıların layihəyə cəlb olunması

Həmçinin proqram çərçivəsində layihə içraçılarına Windows Azure-dan istifadə etmək imkanı, layihəyə beynəlxalq partnerlar, investorlar, müştərilər və istifadəçilər cəlb etmək imkanı, Microsoft Fondunun və Windows Azure-nın qrant layihələrinə müraciət etmək imkanı, Microsoft BizSpark-ın partnerləri tərəfindən verilən üstünlüklərdən istifadə etmək imkanı.

Layihə rəhbəri Əlili Orxan Razim oğlu tərəfindən 21 fevral tarixində Yüksək Texnologiyalar

Parkında təşkil olunan "Özünə inan" təlimi və 13-14 mart tarixlərində təşkil olunan "Möhtəşəm təlimçi ol" təlimi geniş kütləyə bilik və bacarıqlarını, həmçinin inamı artırmaq məqsədi ilə keçirilmişdir. Hər iki təlimin əvvəli və sonunda "Mərkəzi VideoCV platforması" barədə məlumat verilmişdir və istifadə qaydaları izah olunmuşdur. Platforma ilə artıq tanış olanlar tərəfindən fikir və təklifləri alınmışdır.

Layihə rəhbəri ən iri və uğurlu beynəlxalq şirkətlərin təcrübəsindən yararlanmaq qərarına gəldi və beynəlxalq şirkət "P. World" tərəfindən 16-17 aprel tarixində təşkil olunan, "Azərfon" və "Pasha Bank" kimi iri şirkətlərin maliyyə dəstəyilə reallaşdırılan "Marketing Kingdom Baku 3" tədbirində fəal iştirak etdi.

Layihə rəhbəri ezamiyyətdən dönəndən dərhal sonra "Fabrika Coworking mərkəzi" ilə əməkdaşlıq çərçivəsində mərkəzi videocv platforması haqqında kütləyə məlumat vermək məqsədini daşıyan təqdimatda iştirak etdi. Tədbirdə layihə icraçısı Coşqun Kərimov çıxış etdi, iştirakçılara platforma haqqında ətraflı məlumat verdi və qeyd etdi ki, layihə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə dəstəyi ilə həyata keçirilir.

"Fabrika Coworking mərkəzində" Aygün Novruzova tərəfindən keçirilən "BrendSən" təlimində və Leyla Surxayzadə tərəfindən keçirilən "Məktubun sənə iş axtarsın" təlimində "Mərkəzi VideoCV Platforması" və onun iş axtaranlar üçün əhəmiyyəti haqqında məlumat verilmişdir.

Layihənin geniş kütləyə çatdırılması və insanlara işə düzəlmə istiqamətində konkret bilik və bacarıqların ötürülməsi üçün 8, 9 və 10 may tarixlərində dunyanın ikinci ən böyük elmi nəşriyyat evi olan Springer-də çalışan Seymur Rəsulovla birgə "İşə başla!" təlimi təşkil olunmuşdur.

Layihə rəhbəri "Fabrika Coworking mərkəzində" keçirilən layihələrin idarə olunması və təqdimatı ilə bağlı 2 təlimə qatıldı. Birinci təlim Ukraynan "Reprezent" şirkətinin qurucusu tərəfindən verildi və təlimdə layihəni yaxşı təqdim etmək üçün Power Point təqdimatının düzgün hazırlanması barədə danışıldı. Növbəti təlim isə Ukraynan "Happy Farm" texnologiya sahəsində çalışan layihələrin inkubasiya mərkəzinin qurucusu və rəhbəri Anna Deqtereva tərəfindən keçirildi. Təlimdə layihənin güzgün idarə olunması haqqında hər tərəfli məlumat verildi. Təlimlərin sonunda Orxan Əlili hər iki təlimçi ilə VideoCV platforması haqqında söhbət etdi və Ukraynada insan resurslarının axtarılması və idarə olunmasının hansı yollarla aparıldığını öyrəndi.

9 Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq)

ABŞ-ın Kaliforniya ştatında mobil tətbiqin yaradılması ilə bağlı seminarda iştirak etdik. Layihə haqqında şifahi məruzə etdik. Fuze və Box şirkətlərinin texniki heyəti ilə görüşümüz oldu.

29 oktyabr tarixində Yüksək Texnologiyalar Parkında Keyi Strategies-in rəhbəri Dr. Ruth Shapiro tərəfindən Mentorluq proqramında və "Sosial Sahibkarlıq nədir?" təqdimatında "Mərkəzi VideoCV Platforması" layihəsi barədə şifahi məlumat verilmiş və xarici ekspert tərəfindən dəyərli məsləhətlər alınmışdır.

AR Dövlət İqtisad Universiteti, Qafqaz Universiteti, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında karyera planlama mərkəzləri ilə təmas quruldu. Həmin universitetlərin rəsmiləri ilə "onlayn yarmarka" edə bilmə potensialı müzakirə edildi. Tələbələrin innovativ yollarla iş axtarma şansı barədə seminar və konferanslar keçirilməsi barədə təkliflər edildi. Yekundu universitetlərin tələbələri üçün seminarlar keçirildi.

İş axtaranların inamla tez bir zamanda hazırlıq səviyyələrinə uyğun işin tapılması və platfromanın iş axtaranlar tərəfindən istifadə olunması üçün bir çox seminar və təlim təşkil olunmuşdur.

Təlimlər zamanı VideoCV-nin önəmi barədə də məlumat verilmişdir. İştirakçılara VideoCV çəkilməsi ilə bağlı təlimat verilmişdir.

Mərkəzi VideoCV Platforması ilə insan resurslarının axtarışı, seçimi və idarə edilməsi barədə kiçik, orta və iri şirkətlərin İR (insan resursları) mütəxəssislərini məlumatlandırmaq, platformanı istifadə etməkdə köməklik etmək, mütəxəssislərin fikirlərini və təkliflərini öyrənmək məqsədi ilə bir çox görüş və dəyirmi masalar keçirilmişdir.

Layihə rəhbəri Asan Könüllülər Gənclər Təşkilatı və ADA Angels tərəfindən ADA Universitetində təşkil olunmuş "1 Gənc 1 Uğur 1 Hekayə" tədbirində iştirak etmişdir və 500-dən çox iştirakçıya layihə barədə qısa şifahi məlumat vermişdir.

Layihə rəhbəri Əlili Orxan Razim oğlu tərəfindən 21 fevral tarixində Yüksək Texnologiyalar Parkında təşkil olunan "Özünə inan" təlimi və 13-14 mart tarixlərində təşkil olunan "Möhtəşəm təlimçi ol" təlimi geniş kütləyə bilik və bacarıqlarını, həmçinin inamı artırmaq məqsədi ilə keçirilmişdir. Hər iki təlimin əvvəli və sonunda "Mərkəzi VideoCV platforması" barədə məlumat verilmişdir və istifadə qaydaları izah olunmuşdur. Platforma ilə artıq tanış olanlar tərəfindən fikir və təklifləri alınmışdır.

Layihə rəhbəri Əlili Orxan "İE Business School"-un (İspaniya, Madrid) və "Bel.Biz"-in təşkilatçılığı ilə Belarusun paytaxtı Minsk şəhərində keçirilən "İE Venture Day" tədbirində öz layihəsi ilə çıxış etdi. 1000-ə yaxın izləyici və ekspert qarşısındakı çıxış böyük marağa səbəb oldu və ekspertlər tərəfindən bir neçə sual verildi.

Layihə rəhbəri ezamiyyətdən dönəndən dərhal sonra "Fabrika Coworking mərkəzi" ilə əməkdaşlıq çərçivəsində mərkəzi videocv platforması haqqında kütləyə məlumat vermək məqsədini daşıyan təqdimatda iştirak etdi. Tədbirdə layihə icraçısı Coşqun Kərimov çıxış etdi, iştirakçılara platforma haqqında ətraflı məlumat verdi və qeyd etdi ki, layihə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə dəstəyi ilə həyata keçirilir.

"Fabrika Coworking mərkəzində" Aygün Novruzova tərəfindən keçirilən "BrendSən" təlimində və Leyla Surxayzadə tərəfindən keçirilən "Məktubun sənə iş axtarsın" təlimində "Mərkəzi VideoCV Platforması" və onun iş axtaranlar üçün əhəmiyyəti haqqında məlumat verilmişdir.

**10** Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları

3 ədəd HP notebook və 3 ədəd mouse.

1 ədəd videokamera və 1 ədəd ştativ.

**11** Yerli həmkarlarla əlaqələr

Layihə rəhbəri və icraçılar layihə müddətində aktiv olaraq yerli həmkarlarla əlaqələr qurur və onlara "Mərkəzi VideoCV platforması" haqqında məlumat verirdilər və platformanı istifadə etməyə dəvət edirdilər. Qurulmuş əlaqələrin və görülmüş işin nəticəsində platformadan 500-dən çox şirkət istifadə edib. Bundan əlavə milli StartUp-lar, təhsil ocaqları, işədüzəltmə və innovativ texnologiyalarla işləyən, "Mərkəzi VideoCV platformasının" istifadəsində maraqlı olan qurumlarla da əlaqələr qurulmuşdur.

Layihənin məqsədinə uyğun olaraq ölkə daxilində mövcud olan əmək münasibətlərinin təkmilləşdirilməsi və informasiya-kommunikasiya texnologiyaları vasitəsilə davamlı inkişafın təmini məqsədilə insan resursların idarə edilməsində müasir texnologiyaların (video, video

görüşlər) rolu və bu texnologiyanın yerli şirkətlərlə iş axtaran əhalinin qarşılıqlı münasibətlərinə inteqrasiya edilməsinin tədqiqi üçün həm iş axtaran əhali ilə çoxlu sayda görüşlər və təqdimatlar keçirilmişdir, iş axtaranların fikirləri alınmışdır, çətinlik çəkdikləri və aydın olmayan məqamlar aradan qaldırılmışdır və iş tapmaq üçün vacib məsləhətlər verilmişdir. Həmçinin bir sıra şirkətlərin və qurumların rəhbərləri, insan resursları mütəxəssisləri ilə tək bə tək görüşlər keçirilmiş, layihə haqqında ətraflı məlumat verilmiş, videocv, video görüş və ümümi platforma haqqında fikirləri öyrənilmişdir. Aşağıda layihə rəhbərin keçirdiyi görüşlərin haqqında ətraflı məlumat göstərilib.

Mars Tech şirkətinin təsisçisi və icraçı direktoru Orxan Əliyevlə işguzar görüş hər iki tərəf üçün çox yaxşı və faydalı oldu. Orxan müəllim bildirdi ki, VideoCV platforması ölkəmiz üçün çox faydalı olacaq, həmçinin VideoCV-nin gələcəyinə inandığını söylədi və layihə rəhbəri ilə sıx əməkdaşlıq göstərməyə razılıq verdi. Əməkdaşlıq çərçivəsində Mars Tech şirkəti tərəfindən platformaya bir neçə vakansiya yerləşdirildi, mövcud videocv-lərə baxıldı və uyğun olan namizədlərlə görüş təyin olundu.

Bir neçə şirkətin və veb-platformanın təsisçisi Rəşad Mirzəyevlə keçirilən görüş nəticəsində Rəşad bəy öz təcrübəsi ilə paylaşdı, platfromanın inkişaf istiqamətində faydalı məsləhətlər təklif etdi və “Mərkəzi VideoCV platformasının” daha təhlukəsiz və stabil işləməsi üçün öz serverlərindən birində yerləşdirilməsinə və servis xidmət göstərilməsinə razılıq verdi.

Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəznində yaradılan Yüksək Texnologiyalar Parkının idarə heyəti, həmçinin şöbə rəisləri ilə görüşlər keçirilmişdir. YT Park tərəfindən layihənin yerinə yetirilməsi üçün hər tərəfli dəstək verilmişdir. Əməkdaşlıq çərçivəsində Yüksək Texnologiyalar Parkı tərəfindən tədbirlərin keçirilməsi üçün zal təqdim olunmuşdur, həmçinin Yüksək Texnologiyalar Parkının İE Bussines school ilə əməkdaşlığı çərçivəsində “Mərkəzi VideoCV Platforması ilə insan resurslarının idarə edilməsi” layihəsinin Belarusiyanın paytaxtı Minskda keçirilən beynəlxalq tədbirin səhnəsində təqdim olunmasına nail olunmuşdur.

Növbəti görüşlərdən biri Azərsun Holdinqin işə qəbul bölməsinin rəisi Nurulla Nəsibov ilə keçirilmişdir. Görüş zamanı Nurulla bəy bildirmişdir ki, yaradılmış VideoCV platformasını çox bəyənir. Bölmə rəisi həmçinin məlumat verdi ki, Azersun Holdinqin işə qəbul platforması (veb-saytı) var. Nurulla bəy söyləmişdir ki, layihə çərçivəsində yaradılmış mərkəzi VideoCV platformasından Azersun Holdinqin işə qəbul əməkdaşları o zaman istifadə edəcəklər ki, həmin platformaya gündəlik 10000-dən çox insan istifadə etsin. Nurulla bəy layihə rəhbəri tərəfindən təşkil olunacaq təlimlər və maarifləndirici tədbirlərdə iştirak və çıxış etmək, iş axtaranlara kömək olmaq istədiyini vurğuladı.

Azerfon şirkətinin insan resursları departamentinin supervayzeri Samir Əmirov ilə görüş çox məhsuldar keçdi. İlk öncə layihə rəhbəri layihə haqqında məlumat verdi. Samir bəy öz növbsində Azerfon şirkətində işə qəbul prosesinin necə baş verdiyini izah etdi və platforma barədə fikirlərini bildirərək təkliflərini söylədi. Samir bəy həmçinin söylədi ki, layihənin gedişi haqqında mutamadi olaraq məlumat almaq istəyir və layihə çərçivəsində keçirilən böyük tədbirdə iştirak etməkdən məmnun olardı.

Rabitəbankın insan resursları departamentin baş mütəxəssisi Fidan Quliyeva ilə görüş zamanı platformada iş elanlarının yerləşdirilməsi və digər sahələrdə əməkdaşlıq razılığı əldə olunmuşdur. Fidan xanım, platforma barədə fikirlərini və təkliflərini bildirmişdir.

Buta Sığorta şirkətinin insan resursları şöbəsinin baş mütəxəssisi İnci Əhmədzadə ilə görüş çox effektiv keçdi. Belə ki, görüş zamanı platformadan hər tərəfli istifadə razılığı və təlim-tədbirlərdə aktiv iştirak razılığı əldə olunmuşdur.

Keçirilən görüşlərə həmçinin aiddir Sumqait Texnologiyalar Parkının biznesin inkişafı şöbəsinin

biznesin inkişafı üzrə mütəxəssisi Ülkər Kərimova, April UV şirkətinin yaradıcısı və direktoru Ürfət Abbaslı, Caspian telecom şirkətinin direktor muavini Mahizər Tağıyeva, SİP şirkətinin insan resursları meneceri Aynur Buniyatova, KoçSistem Azerbaijan şirkətinin ölkə üzrə meneceri Mucit Emel, Avirtel şirkətinin insan resursları meneceri Elnara Muradova, Megavision İnternational şirkətinin icraçı direktoru Rufat Mahmudov, Komtel Technologies şirkətinin layihə rəhbəri Cemal Karaca, Smart şirkətinin baş direktoru Sübhan Qaragözov və Microsoft Azərbaycan şirkətinin strateji həllər üzrə mütəxəssisi Qaçay Mirzəyevlə görüşlər keçirilmişdir. Görüşlər zamanı platforma barədə fikirlər və təkliflər alınmışdır, iş elanlarının yerləşdirilməsi danışılmışdır. Qeyd etmək lazımdır ki, yuxarıda sadalanan görüşlər layihənin icrası zamanı keçirilən görüşlərin yalnız bir hissəsidir. Görüşlərin ümümi nəticəsi və əldə olunan fikir və təkliflər yekun hesabatın “elmi nəticələr” bölməsində qeyd olunub.

Aprel ayın əvvəlində layihə rəhbəri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində görüş keçirtdi.

Sahil bəy ilə görüşdən 1 həftə sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təlimlər üzrə eksperti Kamil Piriyevnən görüş keçirildi və agentliyinin heyətinə bir neçə istiqamətdə təlim və seminarların keçirilməsi müzakirə olundu.

Onu da qeyd etmək lazımdır ki, layihə rəhbəri Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev tərəfindən məsləhət görülən Rasim Əliquliyevlə əlaqə yaratmağa çalışmış və məktub yazmışdır. Lakin Rasim bəy tərəfindən məktuba cavab verilmədi.

Bir daha vurğulamaq lazımdır ki, platformanın 500-dən çox qurum və şirkət tərəfindən istifadə edilməsi yerli həmkarlarla qurulmuş uğurlu əlaqələrin nəticəsidir.

12 Xarici həmkarlarla əlaqələr

Ezamiyyət zamanı bir sıra yeni əlaqələr quruldu. ABŞ-da yaşayan və çalışan Azərbaycanlılarla da əlaqələr quruldu. Daha ətraflı məlumat ABŞ-a ezamiyyət üzrə hesabatda və yekun hesabatın “Layihə üzrə ezamiyyətlər” bölməsində verilib.

Layihənin təbliği və inkişafı üçün Azərbaycanda səfərdə olan “Asiya Xeyriyyəçilik və Cəmiyyət Mərkəzinin” (The Centre for Asian Philanthropy and Society) rəhbəri Dr. Ruth Shapiro ilə əlaqələr yaradılmış və təcrübə mübadiləsi aparılmışdır. Qeyd edək ki, Dr. Ruth Shapiro ilə əlaqələr hal-hazırda da davam edir.

Layihə rəhbərinin icraçılarla birgə BakuTel 2014 texnologiya sərgisində iştirakı zamanı sərgiyə qatılmış xarici mütəxəssislərlə əlaqələr qurulmuşdur.

Layihə rəhbəri “P. World” tərəfindən 16-17 aprel tarixində təşkil olunan, “Azərfon” və “Pasha Bank” kimi iri şirkətlərin maliyyə dəstəyilə reallaşdırılan “Marketing Kingdom Baku 3” tədbirində fəal iştirak etdi (qeyd etmək lazımdır ki, tədbirdə iştirak haqqı 599AZN təşkil edirdi). Tədbirin mahiyyətini izah etmək üçün çıxış edənlərin siyahısını (şirkət, təqdimatçı, vəzifə) göstərmək lazımdır. Çıxış edənlərin siyahısı aşağıdaki kimi idi:

- Google – Alfonso De Gaetano – Branding sector lead at North Africa and Middle East
- Unilever – Asad Ur Rehman – Media Director North Africa and Middle East
- Adapt or Die – Oliver Kempkens – CEO
- BBC – Muhammad Karim – Marketing manager Middle East, North Africa (MENA)

- Oracle – Karim Mokhnachi – Vice prezident marketing ECEMEA
- Danone – Hasan Kartal – Sales director Nutricia Export
- Official Spokesperson, Prince William and Kate's Wedding – Colleen Harris – Former press secretary to princes Charles, William and Harry
- Fox Broadcasting Company (Turkey) – Baris Zavaroglu – VP marketing, digital, strategy, corporate communication, promo advertising
- Rolls-Royce Motor Cars – Jamal Al Mawed – Head of corporate communications in Middle East, Africa and Latin America
- VISA – Noha Wagih Bashir – Director of social and digital marketing CEMEA
- Procter & Gamble – Alex Malouf – Corporate Communications manager, Arabian Peninsula
- Twitter – Aliza Knox – MD, online sales, APAC
- Heineken – Martina Misheska – Senior brand manager
- Landor – Peter Knapp – Global creative officer
- Y&R Moscow – Irina Volkhonskaya – Managing director
- Nar (Azerfon) – Max Fyodorov – CMO (Chief Marketing Officer)

Tədbir zamanı və fasilələrdə layihə rəhbəri çıxış edənlərin əksərəti ilə, həmçini tədbirdə iştirak edən yerli şirkətlərin təmsilçiləri ilə söhbət etmiş, layihə barədə məlumat vermiş, mütəxəssislərin fikirlərini öyrənmiş, faydalı məsləhətlər almış və gələcəkdə əlaqə yaratmaq üçün əlaqə vasitələrini götürmüşdür.

Hal-hazırda dunyanın ikinci ən böyük elmi nəşriyyat evi olan Springer-də çalışır Seymur Rəsulovla birgə layihə reallaşmışdır və Seymur bəynən sıx əlaqə yaradılmışdır.

Layihə rəhbəri "Fabrika Coworking mərkəzində" keçirilən layihələrin idarə olunması və təqdimatı ilə bağlı 2 təlimə qatıldı. Birinci təlim Ukraynan "Reprezent" şirkətinin qurucusu tərəfindən verildi və təlimdə layihəni yaxşı təqdim etmək üçün Power Point təqdimatının düzgün hazırlanması barədə danışıldı. Növbəti təlim isə Ukraynan "Happy Farm" texnologiya sahəsində çalışan layihələrin inkubasiya mərkəzinin qurucusu və rəhbəri Anna Deqtereva tərəfindən keçirildi. Təlimdə layihənin güzgün idarə olunması haqqında hər tərəfli məlumat verildi. Təlimlərin sonunda Orxan Əlili hər iki təlimçi ilə VideoCV platforması haqqında söhbət etdi və Ukraynada insan resurslarının axtarılması və idarə olunmasının hansı yollarla aparıldığını öyrəndi.

Həmçinin Belarusun paytaxtı Minsk şəhərinə səfər zamanı layihə rəhbəri xarici həmkarlar və ekspertlərlə əlaqələr qurmuşdur. Daha ətraflı məlumat Belarusa ezamiyyət üzrə hesabatda və yekun hesabatın "Layihə üzrə ezamiyyətlər" bölməsində verilib.

| | |
|---|---|
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Layihənin daha geniş fəaliyyət planını icra etmək üçün bir sıra könüllülər işə cəlb olunub və həmin şəxslərə bu sahəyə dair geniş bilgi və təlimlər verilmişdir. Proqramın sonunda könüllülərə sertifikatlar təqdim olunmuşdur. |

İş axtaranların inamla tez bir zamanda hazırlıq səviyyələrinə uyğun işin tapılması üçün bir çox təlim təşkil olunmuşdur. Təlimlər zamanı VideoCV-nin önəmi barədə də məlumat verilmişdir. İştirakçılara VideoCV çəkilməsi ilə bağlı təlimat verilmişdir.

Layihənin geniş kütləyə çatdırılması və insanlara işə düzəlmə istiqamətində konkret bilik və bacarıqların ötürülməsi üçün 8, 9 və 10 may tarixlərində "İşə başla!" təlimi təşkil olunmuşdur. Təlimçi olaraq Dubayda işləyən və yaşayan Seymur Rəsulov dəvət olunmuşdur. Seymur bəy hal-hazırda dunyanın ikinci ən böyük elmi nəşriyyat evi olan Springer-də çalışır. Təlim zamanı iştirakşılara iş tapmaq üçün dəyərli məsləhətlər verilmiş, rezumeləri (CV-ləri) və videocvləri hazırlanmış, hər iştirakçı ilə ayrılıqda sınaq müsahibə keçirilmiş, platforma və onun faydası haqqında məlumat paylaşılmış, sertifikatlar verilmiş və xatirə şəkilləri çəkilmişdir.

14 Sərgilərdə iştirak (əgər baş tutubsa)

Layihə rəhbəri 12 oktyabr tarixində 8-ci Azərbaycan Beynəlxalq Karyera Sərgisində ziyarətçi olaraq iştirak etmiş və sərgidə təmsil olunan qurumlara, həmçinin marağında olan ziyarətçilərə "Mərkəzi VideoCV platforması" barədə məlumat vermiş, platformanı artıq istifadə edənlərdən fikirlərini öyrənmişdir.

Layihə rəhbəri icraçılarla birgə BakuTel 2014 texnologiya sərgisində Yüksək Texnologiyalar Parkının stendində yer alaraq ziyarətçilərə layihə və sayt barədə məlumat vermişdir. Ziyarətçilərdən bir çoxu saytla tanış olduğunu və istifadə etdiyini qeyd etmişdir.

Həmçinin sərgi zamanı cənab Nazir Əli Abbasova layihə barədə məlumat verilmişdir.

15 Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa)

Ezamiyyət zamanı StartUp nümayəndələri, insan resursları mütəxəssisləri, həmçinin texnologiya sahəsinin quruları ilə maraqlı və faydalı görüşlər keçirildi, təcrübə mübadiləsi aparıldı. Eyni zamanda milli StartUp rəhbərləri, insan resursları mütəxəssisləri ilə faydalı təcrübə mübadiləsi keçirildi.

16 Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir)

www.vitalcv.com – Mərkəzi VideoCV platforma

www.news.vitalcv.com – iş axtaranlar və insan resursları mütəxəssisləri üçün maarifləndirici bloq

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Müşavir**
Babayeva Əditə Əli qızı

______________
*(imza)*
"25" 05 201 5-ci il

**Baş məsləhətçi**
Daşdəmirova Xanım Faiq qızı

______________
*(imza)*
" 23 may 201 5-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Əlili Orxan Razim oğlu

______________
*(imza)*
"25" may 201 5-ci il